QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 141 (5613) 28 **iyul** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Bu il Azərbaycan həm iqtisadi, həm də beynəlxalq siyasət sahəsində uğurlar əldə edib

*Prezident İlham Əliyev: "İlin altı ayında qarşıda duran bütün vəzifələr uğurla icra edildi, Azərbaycan öz dinamik inkişaf templərini saxlaya bildi"*



Səh 2


Fransanın "L'Hebdo Bourseplus" qəzeti Azərbaycan Prezidentinin bu ölkəyə səfərindən yazır



6

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva "Jara-2018"in fəxri qonaqları arasında olub



3

Naxçıvanda rabitə və telekommunikasiya sahəsində mühüm işlər görülür



4

"Daşkənd" sərhəd zastavası kompleksi xidməti istifadəyə verilib



5

Filip Kirkorov: Mənim üçün "Jara" festivalı böyük bayramdır



6

Mariya Zaxarova: "Ölkələrimizin Xarici İşlər nazirlikləri arasında qarşılıqlı əlaqələr çox fəallaşıb"



7

8

Robert Köçəryan: "Gedib oturacağam"



8

Paşinyanın Brüssel iflası: erməni hökumət başçısının dilənçiliyi



16

Əliyar Ağayev Çempionlar Liqasında



# Bu il Azərbaycan həm iqtisadi, həm də beynəlxalq siyasət sahəsində uğurlar əldə edib

## *Prezident İlham Əliyev: "İlin altı ayında qarşıda duran bütün vəzifələr uğurla icra edildi, Azərbaycan öz dinamik inkişaf templərini saxlaya bildi"*



### *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikası hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik sahələrində əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 11 iyun tarixli 2861 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev iyulun 27-də "Astara rayonunun Ojakəran-Tüləküvan-Təngərüd avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. SİA xəbər verir ki, doqquz min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Ojakəran-Tüləküvan-Təngərüd avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 3,4 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası da əldə olunan uğurların qiymətləndirilməsi və gələcək hədəflərin müəyyən olunması baxımından kifayət qədər əlamətdar oldu.

Qeyd edək ki, 2018-ci ilin birinci yarısı iqtisadi baxımdan uğurlu hesabat dövrü kimi yadda qaldı. Əvvəlki illərdə başlanmış islahatların nəticəsidir ki, iqtisadi statistika müsbətdir. Belə ki, ötən 6 ayda ümumi daxil məhsul 1,3 faiz artıb. Əsas prioritet kimi müəyyən olunmuş qeyri-neft sektorunun inkişafı istiqamətində rəqəmlər ürəkaçandır. Bu müddətdə qeyri-neft sektorunda qeydə alınan 2 faiz artım bu sahədə aparılan islahatların nəticəsidir. Qeyri-neft sənayesində isə artım 8,8 faiz həcmindədir. Bu, yenə də onu göstərir ki, qeyri-neft sektoruna qoyulan investisiyalar, sahibkarlara göstərilən dəstək öz bəhrəsini verir. Prezident İlham Əliyev giriş nitqinin əvvəlində, qeyd etdiyi kimi, bu dövrdə respublikamız öz dinamik inkişaf templərini saxlayıb: "İlin altı ayında qarşıda duran bütün vəzifələr uğurla icra edildi, Azərbaycan öz dinamik inkişaf templərini saxlaya bildi. Bu il Azərbaycan həm iqtisadi, həm beynəlxalq siyasət sahələrində uğurlar əldə etmişdir".

Dövlət başçısı iqtisadiyyatla yanaşı, ölkəmizin beynəlxalq siyasət sahəsində uğurlar əldə etdiyini, xüsusilə vurğuladı. Bunun kifayət qədər əsasları var. Məhz siyasətin nəticəsidir ki, Azərbaycan dünya birliyinin fəal və qəbul edilən üzvü kimi beynəlxalq mövqelərini əhəmiyyətli dərəcədə gücləndirib. Azərbaycanın həyata keçirdiyi xarici siyasət milli maraqlarımızı, dövlətimizin qlobal miqyasda mövqelərini layiqincə təmin edib. Eyni zamanda, bu siyasət müasir beynəlxalq münasibətlərdə mövcud çağırış və təhdidlərə adekvat reaksiya verərək, özünü uğurla doğruldur.

İlin birinci yarısı da Azərbaycanın beynəlxalq əlaqələrinin inkişafı və möhkəmlənməsi ilə bağlı kifayət qədər uğurlu dövrdür. Bunun bariz nümunələrindən biri prezident seçkiləri oldu. Seçkilərdən sonra bütün aparıcı ölkələrin dövlət və hökumət başçılarının Prezident İlham Əliyevə ünvanladıqları təbrik məktubları həm də Azərbaycanın beynəlxalq birlikdə böyük hörmətə və nüfuza malik olmasının göstəricisi idi.

Bu dövrdə təkcə ABŞ Prezidenti Donald Trampın Prezident İlham Əliyevə üç dəfə məktub ünvanlaması bir çox mətləblərdən xəbər verir. Bu məktublar ABŞ kimi dünyada böyük siyasi çəkisi olan bir dövlətin Azərbaycana və onun rəhbərinə olan xüsusi diqqət və ehtiramının nəticəsidir. Azərbaycanın bu dövrdə inkişaf etmiş və beynəlxalq münasibətlər sistemində aparıcı mövqeyə malik bütün dövlətlərlə, əsas güc və iqtisadi mərkəzlərlə, o cümlədən Avropa İttifaqı ilə səmərəli, işgüzar və bərabərhüquqlu münasibətləri daha da dərinləşib. Respublikamızın Aİ dövlətləri ilə strateji tərəfdaş kimi nüfuzu artıb.

Dövlətin dünyadakı yeri və nüfuzu təkcə siyasi amillərlə ölçülmür. Həm də iqtisadi sahədəki nailiyyətlər hər bir ölkə üçün beynəlxalq imic baxımından böyük əhəmiyyət kəsb edir. Bu gün həyata keçirdiyi qətiyyətli siyasi kursla beynəlxalq aləmdə yüksək nüfuz qazanan Azərbaycana həm də müstəqil enerji siyasətinə, bölgədə reallaşdırdığı qlobal layihələrinə görə ehtiramla yanaşırlar. May ayında açılışı olan "Cənub Qaz Dəhlizi" də Azərbaycanın beynəlxalq nailiyyəti kimi tarixə düşdü. Bütün dünya, bir daha gördü ki, Azərbaycan qarşısına qoyduğu məqsədlərə doğru inamla addımlayan, aydın və düşünülmüş strategiyası və dəqiq siyasəti olan dövlətdir. İyun ayında isə həyata keçirdiyi möhtəşəm neft-qaz layihələri ilə Avropanın enerji xəritəsinə dəyişikliklər etməyi bacaran Azərbaycanın növbəti qlobal təşəbbüsü həyata vəsiqə aldı: 2014-cü ildən inşasına başlanılan Trans-Anadolu təbii qaz boru kəməri (TANAP) istifadəyə verildi. Beləliklə, Azərbaycanın təbii qazını Avropaya çatdıracaq "Cənub Qaz Dəhlizi"nin əsas seqmentlərindən biri də istismara verildi.

Əlbəttə, bütün bunların kökündə dayanan əsas amil Azərbaycanın həyata keçirdiyi müstəqil siyasətdir. Çünki beynəlxalq münasibətlər sistemindəki təcrübədən də məlum olduğu kimi, hər dövlət müstəqil siyasət yürütmək iqtidarında olmur. Azərbaycanda isə vəziyyət fərqlidir. Respublikamız öz siyasi kursunu hansısa dövlət və ya mərkəzlə razılaşdırmır və yalnız öz mili maraqlarını təmin edən yolla inamla addımlayır. "Bizim siyasətimiz müstəqillik siyasətidir, inkişaf siyasətidir. Məhz bizim apardığımız siyasət nəticəsində Azərbaycan son 15 il ərzində çox böyük və şərəfli yol keçmişdir, bütün göstəricilərə görə dünya miqyasında çox yüksək yerlərdədir" - deyə Prezident İlham Əliyev Nazirlər Kabinetinin iclasında bununla bağlı fikirlərini bildirib.

Dövlətin və xalqın inkişafı, yüksəlişi, dünya birliyindəki yerinin müəyyən olunması ona rəhbərlik edən şəxslərdən əhəmiyyətli dərəcədə asılıdır. Tarix bunu hər bir güclü dövlətin təcrübəsində sübut edib. Müstəqil Azərbaycanın da 1993-cü ildən sonra yazılan tarixinə nəzər salsaq, bunu aydın görə bilərik. Məhz Ulu Öndər Heydər Əliyevin başladığı və bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kurs güclü Azərbaycan dövlətinin qurulmasını, onun yerləşdiyi bölgədə liderə, dünyada isə, söz sahibinə çevrilməsini təmin edib.

Respublikamız daim hər cür xarici təsirə, çirkin kampaniyaya, şərəfsiz qarayaxmaya sinə gərib və heç zaman güzəştə getməyib. Cənab Prezident dəfələrlə bəyan edib ki, yürütdüyü müstəqil siyasət və dövlətimizin milli maraqları, heç bir halda, kənar diktəyə məruz qalmayacaq. Hansı siyasi cəbhədə yer alması isə, Azərbaycanın müstəqil dövlət olaraq öz seçimidir və bu, müzakirə predmeti ola bilməz. Bunun nəticəsidir ki, Azərbaycanın dünya miqyasında mövqeləri ötən 15 ildə daha da güclənib.

***"Səs" Analitik Qrupu***

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva “Jara-2018”in fəxri qonaqları arasında olub















***İyulun 26-da Bakıda “Sea Breeze Resort” istirahət mərkəzində “Jara-2018” Beynəlxalq Musiqi Festivalının iştirakçıları qırmızı xalı üzərindən keçiblər. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva “Jara-2018”in fəxri qonaqları arasında olub.***

Qırmızı xalıdan Qlyuk’oza, Qriqori Leps və Cosmos girlrs, Artik & Asti, Soqdiana, Ani Lorak, Sergey Lazarev, Qradusı qrupu, Emin Ağalarov, Sergey Kojevnikov, Lyubov Uspenskaya və başqaları keçiblər.

Qlyuk’oza bütün il ərzində bu festivalı gözlədiyini söyləyib. Ani Lorak Azərbaycan xalqının qonaqpərvər olduğunu və bu tədbirdə məmnuniyyətlə oxuyacağını bildirib.

Sergey Lazarev festivalın adının Bakının iqliminə uyğun olduğunu qeyd edib. Azərbaycanın Xalq Artisti Emin Ağalarov deyib: “Biz düz bir ildir bu festivala hazırlaşırdıq. Bu gün bu səhnədə müxtəlif ölkələrdən, o cümlədən Amerika, Almaniya, Rusiya, Ukrayna və əlbəttə, Azərbaycandan 75 tanınmış sənət adamı çıxış edəcək. Ümidvaram ki, bu, yayın ən möhtəşəm hadisəsi olacaq. Düşünürəm ki, festivalın əla keçməsi üçün əlimizdən gələni etmişik. Bundan sonra hər şey sizin enerjinizdən asılıdır. Ona görə də sizin hamınıza “Jara” arzu edirəm”.

Qırmızı xalıdan keçən Leyla Əliyevanı aparıcı “Jara” festivalının muzası kimi təqdim edib. Aparıcının festivalın bu adını daşımağın çətin olub-olmaması ilə bağlı sualına Leyla Əliyeva bundan məmnun qaldığını bildirib və hamıya gözəl axşam arzulayıb.

“Jara-2018”in qırmızı xalı üzərindən keçən digər iştirakçıları festivalın yüksək səviyyədə təşkilindən, Bakıda olmaqdan məmnunluqlarını ifadə ediblər.

Festivalın təşkilatçıları müğənni və bəstəkar, Xalq Artisti Emin Ağalarov, Rusiyanın Əməkdar Artisti Qriqori Leps, “Russkoye radio”nun və “Qızıl qrammofon” mükafatının təsisçisi Sergey Kojevnikovdur.

# Naxçıvanda rabitə və telekommunikasiya sahəsində mühüm işlər görülür

## *Ordubad rayonunda Rabitə Evi və Yeni Nəsil Telekommunikasiya Sistemi istifadəyə verilib*

***İyulun 27-də Ordubad rayonunda Rabitə Evi və Yeni Nəsil Telekommunikasiya Sistemi istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və "Huawei" şirkətinin Mərkəzi Asiya və Qafqaz ölkələri üzrə vitse-prezidenti James Chen açılışı bildirən lenti kəsiblər.***

Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov çıxış edərək deyib ki, bu gün muxtar respublikada tam kəsintisiz telekommunikasiya sistemi mövcuddur. Naxçıvanın beynəlxalq transavrasiya fiber optik magistrallarına ikitərəfli çıxış təmin edilib. "Azərspace" peyki üzərindən isə 3-cü alternativ rabitə kanalları yerləşdirilib. Hazırda muxtar respublikanın əsas və alternativ magistral telekommunikasiya xətlərinin 1600 kilometri fiber optik xətlərdir. Fiber optik kabel xətləri üzərində qurulan iritutumlu telekommunikasiya şəbəkələri elektron hökumət, bank, maliyyə, vergi, təhsil, səhiyyə və digər sahələr üzrə elektron xidmətlərin təşkilinə imkan verir. Muxtar respublikanın hazırda qlobal internet sisteminə dördtərəfli çıxışı vardır. Bütün yaşayış məntəqələri genişzolaqlı sabit və 4-cü nəsil mobil internet xidmətləri ilə təmin edilib. 2010-cu ildən muxtar respublika ərazisində mövcud telefon sisteminin rekonstruksiyasına başlanmışdır. Bu günə qədər layihənin 4 mərhələsi başa çatdırılıb. Ordubad rayonu ərazisində mövcud avtomat telefon stansiyalarının rekonstruksiyası da bu sahədə görülən işlərin davamıdır.

"Huawei" şirkətinin Mərkəzi Asiya və Qafqaz ölkələri üzrə vitse-prezidenti James Chen çıxış edərək deyib: Naxçıvanda yeni texnologiyaların tətbiqi sahəsində böyük nailiyyətlər qazanılıb. Ordubad rayonunda yeni nəsil telekommunikasiya sistemlərinin açılışı bunu bir daha təsdiq edir. "Huawei" şirkəti Azərbaycanda fəaliyyətinə 16 il bundan əvvəl 2002-ci ildə Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə əməkdaşlıqla başlayıb. Muxtar respublikada əhalini yüksəksürətli mobil və stasionar internetlə təmin edən 4G mobil şəbəkəsinin, məhdud fiziki imkanlı uşaqlar üçün distant təhsil sisteminin qurulması, 18 tələbənin Çin Xalq Respublikasında təlim keçməsi, "Qədim və müasir Naxçıvan" kitabının çapı uğurlu əməkdaşlığın nəticəsidir. "Huawei" şirkəti bundan sonra da muxtar respublikada yeni texnologiyaların tətbiqi, elektron təhsil və digər sahələrdə əməkdaşlığı davam etdirmək niyyətindədir. James Chen yeni texnologiyaların tətbiqi və inkişafına göstərdiyi qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Ordubad Rayon Rabitə İdarəsinin əməkdaşı Dilşad Məmmədova deyib: Mən uzun illərdir ki, rabitə sahəsində çalışıram. Kollektivimiz heç vaxt bugünkü qədər müasir və rahat iş şəraiti ilə təmin olunmayıb. İstər müasir binanın tikilib istifadəyə verilməsi, istərsə də yeni nəsil telekommunikasiya sistemlərinin qurulması muxtar respublikada rabitənin inkişafına göstərilən qayğının ifadəsidir. Artıq Ordubad rayonunun bütün yaşayış məntəqələrində insanlar ən müasir rabitə xidmətindən istifadə edəcəklər. Bu isə o deməkdir ki, rayonumuzda tək bir sahə inkişaf etmir, ümumilikdə insan amilinə böyük dəyər verilir. Dilşad Məmmədova yaradılan şəraitə görə Ordubad rayon rabitəçiləri və sakinləri adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ordubad rayonunda Rabitə Evinin və 11 min 300-dən artıq nömrə tutumu olan 35 yeni nəsil telefon stansiyasının istifadəyə verilməsini əlamətdar hadisə kimi dəyərləndirib, bu münasibətlə Ordubad rayonunun əhalisini təbrik edərək deyib: Ölkəmizdə bütün sahələr inkişaf edir. Bu inkişafın nəticəsidir ki, Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında öz layiqli yerini tutmuşdur. Ordubad rayonunda istifadəyə verilən yeni nəsil telefon stansiyaları dünya səviyyəli şirkət olan "Huawei" şirkətinin ən müasir avadanlıqları hesabına qurulmuşdur. Bu da ölkəmizin inkişafının göstəricisidir. Bu inkişafa isə ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi xəttin ölkə Prezidenti tərəfindən uğurla davam etdirilməsi nəticəsində nail olunmuşdur. Çünki ölkəmizdə iqtisadi inkişaf, sabitlik və dövlətin sosialyönümlü siyasəti olmasaydı, bu işləri həyata keçirmək də mümkün olmazdı.

Ali Məclisin Sədri deyib: Yeni nəsil telefon stansiyası abunəçilərə telefon, videotelefon, İP televiziya, genişzolaqlı internet, qapalı virtual şəbəkələr və 23 adda əlavə servis xidmətləri göstərilməsinə imkan verəcəkdir. Qurulan yeni sistem inkişaf etmiş ölkələrdə də tətbiq olunur. Bu isə bir daha təsdiq edir ki, Azərbaycan dünyanın inkişaf edən müasir ölkələri sırasındadır. Bu gün Ordubad rayonunun rabitə sahəsində dönüş günüdür. Ona görə ki, istifadəyə verilən Rabitə Evindən, 35 yeni nəsil telefon stansiyasından və poçt bölmələrindən Ordubad rayonunun əhalisinin hamısı istifadə edəcəkdir. Müasir texnologiyaların və avadanlıqların qurulması imkan verəcəkdir ki, əhali sərbəst vaxtının daha çox hissəsini öz təsərrüfatına, ailə qayğılarına həsr etsin. Ali Məclisin Sədri deyib: Ordubad rayonunun rabitəçiləri qurulanları qorumalı, onlardan uzun müddət və səmərəli istifadə etməli, əhaliyə nümunəvi xidmət göstərməlidirlər. Qurulanların nəticələrini hər bir sakin öz gündəlik həyatında hiss edəcəkdir. Yeni sistem insanlara rahatlıq, müasirlik gətirəcəkdir. Yeni nəsil avtomat telefon stansiyalarının qurulmasında yerli mütəxəssislərlə yanaşı, "Huawei" şirkətinin də əməkdaşları iştirak etmişdir. Muxtar respublikamızda müasir rabitə sistemlərinin qurulmasında və yeni texnologiyalara




əsaslanan sosialyönümlü layihələrin həyata keçirilməsində "Huawei" şirkəti yaxından iştirak etmişdir. Bundan sonra da "Huawei" şirkəti ilə əməkdaşlıq davam etdiriləcəkdir.

Ali Məclisin Sədri müasir rabitə sistemlərinin qurulmasında göstərdikləri dəstəyə görə "Huawei" şirkətinin kollektivinə muxtar respublika hökuməti və əhalisi adından təşəkkürünü bildirib.

Sonra Ali Məclisin Sədri binada yaradılan şəraitlə maraqlanıb.

Məlumat verilib ki, zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binada Ordubad Rayon Rabitə İdarəsi və "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin Ordubad rayon filialı üçün lazımi iş şəraiti yaradılıb. Rabitə Evində 16 iş otağı, server, "Naxtel" müştəri xidmətləri bölməsi, xidmət zalı, növbətçi otağı, bağlamalar və qəzetjurnallar üçün 2 otaq, arxiv, 56 yerlik zal, 1792 nömrə tutumlu yeni nəsil avtomat telefon stansiyası, bufet və qazanxana yerləşir. "Naxtel" müştəri xidmətləri bölməsində nömrələrin satışı və qeydiyyatı, eyni zamanda, sakinlərin mobil rabitə ilə bağlı müraciətləri qəbul olunur.

Hazırda rayon üzrə 35 avtomat telefon stansiyası vasitəsilə 8 min 261 abonentə rabitə xidməti göstərilir. Rayonda Mərkəzi Poçt və 25 kənd poçt məntəqəsi fəaliyyət göstərir. Bütün poçt məntəqələri kompüterləşdirilib və POS-terminallar quraşdırılıb. Poçt bölmələrində ənənəvi xidmətlərlə yanaşı, kommunal ödənişlərin, üzvlük haqlarının, sığorta haqlarının, dövlət yol polisi cərimələrinin, bələdiyyə rüsumlarının və kredit ödənişlərinin aparılması, pensiya və sosial yardımların paylanması təşkil olunub. Bundan başqa poçt məntəqələrində itmiş əşyaların sahibinə çatdırılması, elektron imzanın sertifikat xidməti və "Naxtel" müştəri xidmətləri fəaliyyət göstərir.

Ali Məclisin Sədri Ordubad rayonu ərazisində qurulan Yeni Nəsil Telekommunikasiya Sistemini işə salıb.

Sonra "Huawei" şirkətinin baş vitse-prezidenti xanım Ami Linin video-müraciət vasitəsilə təbrikləri təqdim olunub. Ami Lin video-müraciətdə muxtar respublikada yeni texnologiyaların inkişafı sahəsində görülən işlərin təqdir olunduğunu, "Huawei" şirkətinin muxtar respublika ilə əməkdaşlığa mühüm əhəmiyyət verdiyini bildirib, göstərilən dəstəyə görə minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov Yeni Nəsil Telekommunikasiya Sistemi barədə məlumat verib. Qeyd olunub ki, bu gün muxtar respublikada istismar olunan 190 avtomat telefon stansiyasından 151-i və ya 80 faizi yeni nəsil texnologiyalara əsaslanır. Abunəçilərin 84 faizi yeni nəsil telefondan istifadə edir. 2017-ci il martın 29-da Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə Çin Xalq Respublikasının "Huawei" şirkəti arasında bağlanmış müqaviləyə əsasən Ordubad rayonundakı mövcud avtomat telefon stansiyalarının rekonstruksiyasına başlanıb, ümumi tutumu 11 min 344 nömrə olan 35 yeni nəsil telefon stansiyası qurulub, 10 qovşaq yaradılıb. Əsas və alternativ fiber optik kabel xətləri üzərində tam kəsintisiz telekommunikasiya əlaqələrinin təmin edilməsi üçün Şərur-Naxçıvan və Naxçıvan-Babək-Culfa-Dəstə-Ordubad məntəqələri arasında rəqəmsal transmissiya avadanlıqları qurulub. Yeni sistem vasitəsilə sakinlərə telefon, videotelefon, İP televiziya, genişzolaqlı internet, qapalı virtual şəbəkələr və 23 adda əlavə servis xidmətləri təklif ediləcəkdir. Həmçinin bu gün Ordubad rayonunda 4-cü nəsil "Naxtel" mobil operatorunun bütün yaşayış məntəqələrini əhatə edən 16 baza stansiyası mövcuddur.

Ali Məclisin Sədri bina ilə tanışlıqdan sonra kollektivlə görüşüb, yaradılan şəraitdən səmərəli istifadə olunması ilə bağlı müvafiq tapşırıqlar verib. Rabitə İdarəsinin həyətində də abadlıq işləri görülüb, generator otağı, anbar və xidməti avtomobillər üçün dayanacaq tikilib.



# "Hərbiyyə" hərbi vətənpərvərlik düşərgəsi başa çatıb



Gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması, onlara dövlətçiliyə sədaqət hisslərinin təlqin edilməsi, gənc nəslin nümayəndələrinin dünya görüşlərinin artırılması və dəyərli istirahətlərinin təşkili məqsədilə Dövlət Sərhəd Xidməti tərəfindən ənənəvi olaraq kompleks tədbirlər həyata keçirilir. Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən SİA-ya verilən məlumata görə, Dövlət Sərhəd Xidməti və "ASAN Xidmət Könüllüləri" Təşkilatı tərəfindən birgə təşkil olunan və Azərbaycan dövlətçiliyinin 100 illiyinə həsr olunan "Hərbiyyə" hərbi vətənpərvərlik düşərgəsi də bu qəbildən olan layihələrdəndir.

İyul ayının 20-dən 27-dək respublikamızın ən gözəl guşələrindən birində, Qəbələ rayonu ərazisində, Böyük Qafqaz sıra dağlarının ən yüksək zirvəsi olan "Bazardüzü" dağının ətəklərində yerləşən Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Şəki" sərhəd dəstəsinin "Laza" sərhəd zastavasında təşkil olunan "Hərbiyyə" hərbi vətənpərvərlik düşərgəsi başa çatmışdır. 2016-cı ilin 10 avqust tarixində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin şəxsən səfər etdiyi "Laza" sərhəd zastavasında könüllülərdə sərhəd mühafizəsi haqqında ən geniş təsəvvürün for-malaşdırılması üçün əlverişli şərait yaradılmışdır. Düşərgəyə cəlb olunmuş könüllülər hərbi nizamnamələrin tələblərinə uyğun olaraq sərhədçi həyatı yaşamış, sərhəd xidmətinin xüsusiyyətləri ilə yaxın-dan tanış olmuşlar.

Düşərgənin fəaliyyət göstərdiyi müddət ərzində müxtəlif silahlarla, hərbi texnika ilə tanışlıq, pnevmatik silahdan atışların yerinə yetirilməsi, silahların sökülməsi və yığılması, narkotik maddə və partlayıcı vasitənin xidməti itlər tərəfindən axtarılıb tapılması, çevikçilərin nümunəvi çıxışları, "Sərhəd naryadı tərəfindən sərhəd pozucusunun yaxalan-ması və sərhəd zastavasına müşayiət edilməsi", "Maskalanma", "Ləpirçilik" və sıra hazırlığı üzrə nümunəvi praktiki məşğələlər və digər tədbirlər könüllülərin istirahətini daha maraqlı və səmərəli etmişdir.

Azərbaycan Respublikasının Milli Qəhrəmanı, Dövlət Sərhəd Xidmətinin sıralarında xidmət edən polkovnik İntiqam Atakişiyevlə və 2016-cı ilin aprel döyüşlərinin iştirakçıları ilə keçirilən görüş, diskussiyaların aparılması da yaddaqalan tədbirlərdən olmuşdur.

Hərbi vətənpərvərlik düşərgəsinə cəlb olunmuş könüllülərin asudə vaxtının və fəal istirahətinin təşkili məqsədilə müxtəlif idman yarışları, Azərbaycan kinematoqrafçılarının vətənpərvərlik mövzusunda istehsal etdikləri və sərhədçilərdən bəhs edən filmlərin nümayişi və müzakirəsi, Qəbələ və Şəki rayonlarının tarixi, gəzməli və görməli yerlərinə, mədəniyyət ocaqlarına ekskursiyalar, Şəki rayon mədəniyyət mərkəzinin incəsənət ustalarının iştirakı ilə konsert proqramları, fotoqraf Vüqar İbadovun fərdi sərgisi, respublikamizin tanınmış ədəbiyyat və incəsənət xadimləri ilə görüşlər keçirilmişdir.

Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev, Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov, Dövlət Gömrük Komitəsinin sədri gömrük xidməti general-leytenantı Səfər Mehdiyev və Azərbaycan Respublikasının Prezidenti yanında Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev 24 iyul 2018-ci il tarixdə hərbi vətənpərvərlik düşərgəsinin iştirakçıları ilə görüşmüşlər. Görüş zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında dünyanın ən qabaqcıl və firavan ölkələrindən birinə çevrilən Azərbaycan Respublikasında gənclərin inkişafı, vətənpərvərlik tərbiyələri ilə yanaşı istirahətlərinin və asudə vaxtlarının səmərəli təşkili məsələlərinin də ciddi dövlət qayğısı ilə əhatə olunması, gənclərdə liderlik keyfiyyətlərinin formalaşmasına xüsusi önəm verilməsi qeyd edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ideyası və təşəbbüsü ilə yaranmış ASAN Xidmətin Azərbaycan brendinə çevrilməsində çox mühüm və nəcib fəaliyyətlə məşğul olan könüllülərin xüsusi rolu qeyd olunmuşdur. Dövlət Sərhəd Xidmətinin və "ASAN Xidmət Könüllüləri" Təşkilatının birgə layihələrinin vətənpərvərlik ideyalarının təbliğatı üçün mühüm əhəmiyyət kəsb etməsi bildirilmişdir. İyul ayının 27-də "Hərbiyyə" hərbi vətənpərvərlik düşərgəsinin başa çatması ilə əlaqədar mərasim keçirilmişdir. Mərasimdə düşərgəyə cəlb olunmuş könüllülərə sertifikatlar təqdim olunmuş, yarışlarda qalib gələnlər mükafatlandırılmış, xatirə hədiyyələri təqdim edilmişdir.

# "Daşkənd" sərhəd zastavası kompleksi xidməti istifadəyə verilib



Dövlət Sərhəd Xidməti (DSX) ölkəmizin sərhəd mühafizə infrastrukturunun təkmilləşdirilməsi, müasir tələblərə cavab verən yeni sərhəd məntəqələrinin tikilib istifadəyə verilməsi, sərhədçilərin xidmət və məişət şəraitinin yaxşılaşdırılması tədbirlərini müvəffəqiyyətlə davam etdirir. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, iyulun 27-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsində yeni inşa edilmiş "Daşkənd" sərhəd zastavası kompleksinin xidməti istifadəyə verilməsi bu istiqamətdə həyata keçirilən məqsədyönlü tədbirlərin növbəti ifadəsi olub. Yeni sərhəd zastavası kompleksinin açılışı münasibətilə keçirilən mərasimdə Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev ulu öndər Heydər Əliyevin milli inkişaf siyasətini qətiyyətlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yüksək diqqəti sayəsində DSX-nin bütün hərbi hissə və bölmələrində şəxsi heyət üçün yüksək xidməti və məişət şəraitinin yaradıldığını qeyd edib. Ardıcıl həyata keçirilən islahatlar sayəsində Azərbaycan Sərhəd Mühafizəsinin mükəmməl inkişaf yolu keçərək qarşıya qoyulan hər bir tapşırığı layiqincə yerinə yetirməyə qadir olan hərbi qurum səviyyəsinə yüksəldiyi xüsusi vurğulanıb.





General-polkovnik Elçin Quliyev Azərbaycan sərhədçisinin dövlətçiliyimizin və sərhədlərimizin keşiyində ayıq-sayıq dayandığını, Dövlət Sərhəd Xidmətinin bütün şəxsi heyəti üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı altında xidmət etməyin böyük şərəf və yüksək məsuliyyət olduğunu bildirib.

Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərov tədbirdə çıxış edərək sərhədçilərə təbriklərini çatdırıb, onlara uğurlar arzulayıb. Mərasimdə xidmətdə yüksək nəticələr göstərmiş hərbi qulluqçulara mükafatlar təqdim olunub.

Sonra Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev qonaqlarla birlikdə sərhəd zastavasına baxış keçirib. Qısa müddət ərzində müasir tələblərə uyğun yeni inşa edilmiş sərhəd zastavasında xidmətin yüksək səviyyədə təşkili və sərhədçilərin istirahəti üçün hər cür şərait yaradılıb. Zabit və gizir ailələri üçün inşa olunmuş mənzillər, müasir tələblərə cavab verən xüsusi təyinatlı otaqlar, yeməkxana, istirahət guşəsi, təlim şəhərciyi, mərkəzləşdirilmiş istilik və işıqlandırma sistemləri, hamam-camaşırxana lazımi avadanlıq və vasitələrlə təmin olunub, yol və səkilər asfaltlanıb, ərazidə abadlaşdırma işləri görülüb.

Yerləşdiyi ərazinin xüsusiyyətləri nəzərə alınaraq sərhəd zastavasını fasiləsiz enerji ilə təmin etmək məqsədilə pilot layihə kimi Azərbaycan istehsalı olan günəş elektrik stansiyası quraşdırılıb. Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi ilə birgə həyata keçirilən bu pilot layihənin uğurla gerçəkləşdirilməsi gələcəkdə mürəkkəb relyef şəraitinə malik olan digər ucqar sərhəd zastavalarının da enerji təminatının bərpa olunan enerji mənbələri hesabına həyata keçirilməsi üçün şərait yaradacaq. Mürəkkəb relyefə malik yüksək dağlıq və meşəlik ərazidə inşa edilən yeni sərhəd zastavasında yaradılan şərait sərhədçilərə ilin bütün mövsümlərində, o cümlədən şaxtalı-boranlı qış aylarında xidmətin daha yüksək səviyyədə təşkilinə imkan verəcək. Tədbirin sonunda DSX rəisi, general-polkovnik Elçin Quliyev və qonaqlar şəxsi heyətlə birlikdə nahar ediblər.

# Fransanın "L'Hebdo Bourseplus" qəzeti Azərbaycan Prezidentinin bu ölkəyə səfərindən yazır


actualités

>> Interview

Le président de la République d'Azerbaidjan annonce à l'Elysée un renforcement de ses relations économiques avec la France.

comprendre l'économie mondiale

Fransanın "L'Hebdo Bourseplus" qəzeti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu ölkəyə səfərindən bəhs edən məqalə dərc edib. AZƏRTAC xəbər verir ki, məqalədə jurnalist Yannik Ürryen Prezident İlham Əliyevin Fransaya səfəri, səfər çərçivəsində aparıcı fransız şirkətlərinin rəhbərləri ilə görüşləri haqqında ətraflı məlumat verib.

Bildirib ki, Azərbaycan Prezidenti ilə görüşlər zamanı enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq məsələləri diqqət mərkəzində olub. Səfər çərçivəsində neft-qaz sektoru, kosmos, infrastruktur, hava nəqliyyatı daxil olmaqla nəqliyyat, metro tikintisi, kosmik fəza sənayesi, hərbi-texniki sahələri əhatə edən 11 böyük şirkət rəhbəri ilə çox məhsuldar görüşlər keçirilib. Görüşlərdə Cənub Qaz Dəhlizinin əhəmiyyətindən danışılıb.

Qeyd edilib ki, iki ölkə arasında imzalanan sazişlərin həcmi 2 milyard dollardan çoxdur. Yazıda Azərbaycan və Fransa prezidentlərinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı da fikir mübadiləsi apardıqları bildirilir. Qeyd edilir ki, Azərbaycan Prezidenti münaqişənin həlli ilə bağlı ölkəsinin mövqeyini bir daha açıqlayıb. Prezident İlham Əliyev ümidvarlıq ifadə edib ki, ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olan Fransa Prezidenti şəxsən bu münaqişənin həllində fəal iştirak edəcək.

# Bəhruz Quliyev: "Ermənistan Qafqazda bütün layihələrdən kənarda qalmış bir dövlətdir"



"Dağlıq Qarabağla bağlı danışıqlar prosesinin hər birində cənab prezident İlham Əliyevin çıxış etdiyi mövqedən də aydın olur ki, bu münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll oluna bilər. Bu, bizim istər mənəvi, istərsə də beynəlxalq hüququmuzdur". SİA xəbər verir ki, bu fikirləri Olaylar.az-a açıqlamasında "Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deyib. Siyasi ekspertə görə, hakimiyyətə gəldikdən sonra anormal bəyanatlarla çıxış edən Paşinyan sübut etdi ki, o, məhz küçə müxalifətinin prezidentidir: "Ermənistanda hakimiyyətə gələn insanın birinci missiyası Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq və Ermənisitanı dünyadan təcrid vəziyyətindən çıxarmaq idi. Bu vəziyyətdən çıxmaq üçün isə başlıca olaraq Azərbaycanla danışığa getmək üçün təşəbbüs göstərmək və Qarabağı Azərbaycana sülh yolu ilə təhvil vermək konteksiylə çıxış etmək idi. Təəssüflər olsun ki, Paşinyan hakimiyyəti Dağlıq Qarabağla bağlı daha da aqressiv addımlar ataraq beynəlxalq hüquqlara sığmayan, hesablanmamış bəyanatlar səsləndirir.

Bəhruz Quliyevin sözlərinə görə, Dağlıq Qarabağ məsələsində Ermənistanın başlıca mövqeyi kompromisə getməkdən ibarət olmalıdır: "Ordumuz Ermənistanın ordusundan dəfələrlə güclüdür. Azərbaycan öz mövqelərinin bərkidilməsi prosesini bu yaxınlarda Naxçıvanda Günnüt əməliyyatı ilə sübut etdi".

Bəhruz Quliyev bildirib ki, Ermənistan Azərbaycanın regionda gücünü, bütün beynəlxalq layihələrin həyata keçirilməsində təşəbbüskar və vasitəçi olduğunu görməlidir: "Ermənistan rəhbərliyi regionda blokadadan çıxmaq üçün Azərbaycanla kompromisə getməyə razı olmalıdır, ancaq Paşinyan hələ də bunu dərk etmir və dərk etmədiyi müddətcə anormal əsası olmayan bəyanatlar verərək ölkəsini düşdüyü təcrid vəziyyətində saxlamağa davam edəcəkdir".

Ekspert son olaraq qeyd edib ki, Paşinyanın öz anormal təfəkkürü ilə çıxış etməyə davam etdiyi müddətcə küçə müxalifətindən gələn rəhbərlik yenə də öz yolu ilə küçə müxalifətinə qayıtmış olacaq: "Paşinyanın mövqeyi həm erməni xalqının, həm də Ermənistanın dünyada onsuz da aşağı olan reytinqinin əleyhinə işləyir. Ermənistan Qafqazda bütün layihələrdən kənarda qalmış bir dövlət olduğunu görməli və atdığı addımlarda bu vəziyyətdən çıxış yolunu axtarmalıdır".

# Hikmət Babaoğlu: ""Jara" hər şeydən öncə beynəlxalq musiqi festivalıdır"



"Jara" hər şeydən öncə beynəlxalq musiqi festivalıdır və bunu elə mühüm incəsənət hadisəsi kimi də qəbul etmək lazımdır. Ona siyasi don geyindirmək, siyasi eynəklə baxmaq düzgün deyil. Məsələyə bu kontekstdən yanaşa bilsək görəcəyik ki, orada kiminsə iştirak edib-etməməsi ən sonuncu məsələlərdən biridir. Çünki söhbət musiqidən, incəsənətdən gedir və bu musiqi hadisəsi nəticə etibarilə həm də Azərbaycan musiqisinin, Azərbaycan mədəniyyətinin təbliğ olunmasına xidmət edir. Ona görə də bu məsələ ətrafında sosial şəbəkələrdə və bəzi media qurumlarında yaradılmağa çalışılan süni ajiotaj yersizdir". Bunu SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.

"Nəzərə almalıyıq ki, bizim torpaqlarımızı işğal edən Ermənistandır və biz bu işğalçı ölkəyə görə hamı ilə düşmən ola bilmərik. Tam əksinə problemin həlli üçün bizə dostlar lazımdır və biz onları qazanmalıyıq. Əgər bu gün Rusiya vətəndaşı olan, kürd mənşəli bir rus müğənni Azərbaycan mədəniyyətinə, musiqisinə, dünyada multikulturalizmin paytaxtı kimi qəbul edilən Bakımıza rəğbətini bildirirsə, buraya gəlmək istəyirsə, doğma dilimizdə musiqi səsləndirmək istəyirsə, məncə bunu normal qəbul etmək lazımdır. Necə ola bilər ki, Avropa Oyunlarına, İslam Həmrəyliyi oyunlarına ev sahibliyi edən, bütöv bir ili "Multikulturalizm ili" elan edən, "İslam Həmrəyliyi ili" elan edən və bunu əslində dinlərarası dialoqa çevirməyi bacaran bir ölkə onun mədəniyyətini və incəsənətini daha yaxından tanımağa çalışan bir incəsənət xadiminə ev sahibliyi edə bilməsin. Axı Azərbaycan dünyada tolerantlıq məkanı kimi tanınır, əməkdaşlıq və tərəfdaşlıq məkanı kimi tanınır. Ona görə də belə məsələlərə bir qədər soyuqqanlı, təmkinli yanaşmaq daha obyektiv və realist düşünməyimizə gətirib şıxara bilər"-deyə, millət vəkili bildirib.

Deputatın sözlərimə görə, ancaq təəssüf ki, bəzi hallarda realist mövqedən çıxış edən şəxslər və qurumlar öz mövqelərinə görə hücuma məruz qalırlar: "Elə sosial şəbəkələrdə Xəzər TV-nin bir qrup sosial şəbəkə iştirakçısı tərəfindən şantaja məruz qalması da bu hadisələrdən biridir. Çünki bu televiziya məsələ ətrafında yaradılan süni ajiotajı doğru məcraya yönləndirməyə çalışan informasiya qurumlarından biridir. Artıq "Jara" beynəlxalq musiqi festivalı başlayıb və həmişə olduğu kimi bu dəfə də paytaxt sakinləri tərəfindən olduqca maraqla və coşquyla qarşılanıb. İnanırıq ki, bu musiqi festivalı Azərbaycan musiqi və incəsənətinin, Azərbaycan həqiqətlərinin, Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasına öz töhfəsini verən mühüm tədbirlərdən biri kimi yadda qalacaq".

# Filip Kirkorov: Mənim üçün "Jara" festivalı böyük bayramdır



Mənim üçün "Jara" festivalı böyük bayramdır. Bakı mənim evimdir. Burada dostlarım çoxdur. Azərbaycanı çox sevirəm. Bu ölkə çox gözəldir və insanları qonaqpərvərdir. Sizin ölkə öz arxitekturası, koloriti ilə məni heyran edir. Bura böyük məmnuniyyət hissi ilə yenidən gələcəyəm. Bu sözləri AZƏRTAC-a məxsusi müsahibəsində Rusiyanın Xalq Artisti Filip Kirkorov deyib. Festivalın yüksək səviyyədə keçdiyini bildirən F.Kirkorov burada tanınmış estrada ulduzlarını, əsrarəngiz şounu, tamaşaçı sevgisini gördüyünü vurğulayıb: "Bir daha təşkilatçılara dərin minnətdarlığımı bildirirəm. Bu, möhtəşəm, fərqli çalarlı musiqi bayramıdır. "Jara" hər kəsə dəniz qədər pozitiv emosiya və unudulmaz xatirələr bəxş etdi. Dostlarımla eyni səhnəni bölüşməyimə şərait yarandığı üçün çox şadam. Məni sevən tamaşaçılarımı yenidən görmək unudulmaz hisslərdir. Növbəti "Jara" festivalını səbirsizliklə gözləyəcəyəm".

# "Jara" festivalına gələn İnqrid: "Azərbaycanı çox sevirəm"



"Jara" festivalının iştirakçısı, məşhur fransız müğənnisi İnqrid Bakıya gəlib. SİA-nın məlumatına görə, festivala qatılan ifaçı jurnalistlərə müsahibəsində Azərbaycanı çox sevdiyini dilə gətirib: " "Jara" festivalına ilk dəfə qatılıram. Bakını çox sevirəm. Bura mənim evim kimidir. Gözəl dəniz, əsrarəngiz şəhər, bir sözlə, Azərbaycanda olmağımdan qürur duyuram.

Fransız müğənnisi "Jara" festivalının yüksək səviyyədə təşkil olunduğunu bildirib: " Günlər günəşli keçir, əsl dəniz havasıdır. Zəhmətim hədər getmədi, perfomansım tamaşaçılara zövq yaşatdı. Səhnədə sürprizlər təqdim etməyə çalışdım. Tamaşaçılar ifamı bəyəndilər və bu məni çox sevindirir. Onu da qeyd edim ki, festivalda ən yaxşı mahnılar səsləndirilir. Bu da hamıda gözəl əhval-ruhiyyə, müsbət emosiya doğurur. Səhnə olduqca gözəl məkanda yerləşir. Bəzən dəniz ön plana keçir. "Jara" isə isti Bakı havasına əlavə hərarət gətirir".

# Mariya Zaxarova: "Ölkələrimizin Xarici İşlər nazirlikləri arasında qarşılıqlı əlaqələr çox fəallaşıb"

***Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin (XİN) İnformasiya və Mətbuat Departamentinin direktoru Mariya Zaxarova başda olmaqla bu qurumun nümayəndə heyəti xarici siyasətin informasiya təminatı məsələlərinə dair XİN-lərarası məsləhətləşmələr aparmaq üçün Bakıda səfərdədir. Məsləhətləşmələr çərçivəsində kütləvi informasiya vasitələri və sosial şəbəkələrlə iş, rəqəmsal diplomatiya sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib, qarşılıqlı maraq doğuran sahələrdə təcrübə mübadiləsi aparılıb. Mariya Zaxarova səfər çərçivəsində AZƏRTAC-a müsahibə verib. Həmin müsahibəni təqdim edirik.***



*-Siz Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin bugünkü vəziyyətini necə qiymətləndirirsiniz, yüksək səviyyəli dialoq bu münasibətlərə necə təsir göstərir?*

-Ölkələrimiz arasında münasibətlər gözəl inkişaf edir. Bu, tarixən yoxlanılmış və müasir dövrdə inkişaf edən həqiqi dostluq münasibətləridir. Ölkələrimiz arasında münasibətlər bütün sahələrdə - həm humanitar, həm iqtisadi, həm də siyasi sahələrdə inkişaf edir. Sözsüz ki, bütün bunlar, ilk növbədə, ölkələrimizin rəhbərlərinin xidmətidir. Bu münasibətlərə onlar istiqamət verir, onlar bu münasibətləri dinamikləşdirir, necə deyərlər, "saatlarını qururlar", lakin bununla bərabər, görülmüş işin nəticələrini də yoxlayır və gələcək inkişafın vektorunu müəyyən edirlər.

Bu gün XİN-lərarası məsləhətləşmələrdə bizim toxunduğumuz mövzulardan biri Rusiyanın və rusiyalıların nəzərində Azərbaycanın necə qəbul edilməsi məsələsi idi. Moskvada Azərbaycanı və Bakını sevirlər. Sizin dövlətinizin bütün uğurlarına görə Moskvada sevinirlər. O cümlədən son illərdə Bakının necə dəyişməsini buraya gələnlərin hamısı qeyd edir. Hamı bu barədə bir-birinə danışır. Bu, ikitərəfli münasibətlərin inkişafının bir cəhətidir. Bu münasibətlər təkcə siyasi tərkib hissə üzrə və ya, məsələn, elm, yaxud biznes sahəsində inkişaf etməklə məhdudlaşmamalıdır. Əməkdaşlığın bütün tərəflərinin məcmusu ölkələrimizin xalqları üçün vacibdir. Moskva ilə Bakı arasında münasibətlər məhz bu cür inkişaf edir.

*-Avqustun 12-də Aktauda Xəzəryanı ölkələrin dövlət başçılarının növbəti sammiti keçiriləcək. Siz Xəzərin hüquqi statusu barədə Konvensiya imzalanması perspektivini necə qiymətləndirirsiniz və bu sənəd Xəzəryanı dövlətlər arasında mövcud fikir ayrılıqlarının aradan qaldırılmasında necə əks olunacaq?*

-Bizdə belə bir ənənə var: biz Prezident Administrasiyası xətti ilə rəsmən elan edilməyincə dövlət başçısının iştirakı ilə keçirilən sammitləri və tədbirləri şərh etmirik. Buna görə də həmin məsələ məhz Rusiya Federasiyası Prezidenti Administrasiyasının mətbuat xidməti tərəfindən işıqlandırılmalıdır. Lakin əlbəttə, bütün müvafiq sənədlərin, o cümlədən sizin dediyiniz sənədin hazırlanması illər boyu davam edib. Bu iş sadə olmayıb və çox intensiv olub. Məhz ondan ötrü ki, tərəflər regional sabitlik üçün, əlbəttə, iqtisadiyyat və region ölkələrinin inkişafı üçün bu sənədin nə dərəcədə gərəkli olduğunu və ona nə dərəcədə ehtiyac duyulduğunu anlasınlar. Buna görə irəli getmək və gündəliyi şərh etmək fikrində deyiləm. Bir daha deyirəm: mümkün olduqda bunu bizdən böyük yoldaşlar edəcəklər. Mən onu qeyd edə bilərəm ki, sammitə hazırlıq çox intensiv şəkildə, o cümlədən həm Xarici İşlər Nazirliyi xətti ilə, həm ikitərəfli və əlbəttə, həm də çoxtərəfli formatlarda gedir.

*-Ölkələrimizin Xarici İşlər nazirlikləri arasında əməkdaşlığın səviyyəsini necə səciyyələndirmək olar. Xarici siyasətin informasiya təminatı məsələlərinə dair XİN-lərarası məsləhətləşmələr aparılmasının formatı nə il bağlıdır?*

-Bizdə xarici siyasət idarələri arasında dialoq bütün istiqamətlər üzrə inkişaf edir, bu dialoq operativdir. Bu, elə protokol tədbiri deyil ki, onun çərçivəsində sadəcə formal müzakirə aparılsın, bu, bütün problemlərə dair canlı dialoqdur. Bizim nazirlər mütəmadi olaraq görüşür, müntəzəm telefon danışıqları aparırlar. Biz bu haqda informasiyanı müntəzəm dərc edirik. Həm ikitərəfli gündəliyə aid məsələlər, həm regional, həm də bütövlükdə beynəlxalq münasibətlər müzakirə və həll edilir. Buna görə də iki ölkənin XİN-ləri üzrə qarşılıqlı əlaqələr çox fəal inkişaf edir və bizim idarələrin mətbuat xidmətləri arasında artıq neçənci dəfədir ki, keçirilən məsləhətləşmələr buna daha bir sübutdur. Mənim fikrimcə, çox peşəkar, maraqlı və məzmunlu söhbət oldu, qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında maraqlı təkliflər irəli sürüldü. Buna görə işçi formatda normal canlı ünsiyyət hər hansı əlamətdar və ya protokol xarakterli hadisələrə dair sadəcə dialoq deyil. Bu gün bu, bir daha sübut olundu.

*-Rusiya ATƏT-in Minsk qrupunun həmsədri kimi Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair Azərbaycan və Ermənistan rəhbərlərinin görüşü təşəbbüsü ilə çıxış etməyi planlaşdırırmı?*

-Bu, Rusiya XİN-ə çox tez-tez verilən suallardan biridir və mən dəfələrlə demişəm ki, belə əlaqələrə, ilk növbədə, hər iki tərəf maraq göstərməlidir. Rusiya öz vasitəçi rolu ilə həmişə bu tərəflərin yanındadır və iştirakçıların fikrincə həmin rolun öhdəsindən uğurla gəlir. Biz ölkələrin özləri üçün məqbul olan və əlbəttə, konstruktiv məcrada gedən və müsbət nəticə verən dialoqun, qarşılıqlı fəaliyyətin, ünsiyyətin istənilən formalarını alqışlayırıq. Düşünürəm ki, bu, həm Azərbaycanda, həm də Ermənistanda yaxşı məlumdur, bizim mövqeyimiz ənənəvidir, lakin görünür, bu kursu ardıcıl olaraq həyata keçirən Rusiyanın gücü tərəfi də bundadır.

*-Mariya Vladimirovna, siz necə düşünürsünüz, iki ölkə arasında mədəni-humanitar münasibətlər necə inkişaf edir?*

-Dünən bunu yəqin etməyə imkan oldu ki, mədəni-humanitar əməkdaşlığın daha bir tərkib hissəsi praktikada necə həyata keçirilir. Xüsusən Bakıda start götürmüş "Jara" festivalını nəzərdə tuturam. Açığını deyim, bu festival barədə çox eşitmişdim, lakin onun miqyasını heç təsəvvür etmirdim. Dünən gördüklərim məni heyran etdi. Mənim iri beynəlxalq tədbirlər və musiqi festivalları barədə təsəvvürüm var, lakin Rusiyanın və qonşu ölkələrin estrada ulduzlarını dörd günlüyə Bakıda toplamağı mənim fikrimcə yalnız Emin bacarar, çünki səmimi deyirəm, bunun analoqlarını görməmişəm. Nəyə görə mən bu barədə danışıram. Axı, söhbət təkcə o insanları toplamaqdan getmir. Söhbət bu tədbiri elə təşkil etməkdən gedir ki, həm tamaşaçılar məmnun olsun, həm də artistlər hədsiz çox olmalarına və hamısının ulduz olmasına baxmayaraq özlərini əsl ulduz kimi hiss etsinlər.

Daha bir mühüm məqam. Dünən fikir vermişəm ki, ifaçıların çoxu özlərini göstərmək üçün çox yaxşı imkana və məkana malikdirlər. Bu, böyük işdir. Ona görə ki, ulduzların özlərini təsdiq etməsinə ehtiyac yoxdur. Hamı onları sevir, hamı onlara pərəstiş edir. Gənclərin irəli çıxması kifayət qədər çətin məsələdir, çünki rəqabət çox yüksəkdir və Azərbaycan tərəfin bu cür festivallar təşkil etməsi onlara böyük imkanlar yaradır. Əlbəttə, insanlar arasında sərhədləri aşan bu ünsiyyət mənim üçün informasiya mütəxəssisi kimi də maraqlı idi, çünki paralel olaraq translyasiyalar gedirdi, paralel olaraq müsahibələr yazılır, çəkilişlər aparılırdı. Bunları sonradan televiziya ilə göstərəcək, radiostansiyalarda səsləndirəcəklər. Bu festivalda iştirak edən ölkələrdə jurnallar bu barədə yazacaq, buraya gəlmiş artistlər belə bir ümumi mədəni məkan yaradacaqlar. Bəli, bunlar müasir musiqi nümunəsində olacaq, lakin bu, çox vacibdir, ona görə ki, iştirakçılar əsasən gənclərdir. Lakin bu, məsələnin yalnız bir tərəfidir.

Bizim humanitar münasibətlərimiz müxtəlif sahələrdə inkişaf edir - təhsil, tələbə mübadiləsi. Yeri gəlmişkən, bu gün bu imkandan da istifadə etdim və azərbaycanlı həmkarlarımızı, Azərbaycandan olan jurnalistləri Rusiyaya dəvət etdim. Biz press-turlar təşkil etməyə hazırıq. Əlbəttə, mən çox yaxşı başa düşürəm ki, azərbaycanlıların Rusiyanı kəşf etməsinə ehtiyac yoxdur. Lakin press-turlar məhz ondan ötrü təşkil edilir ki, regionların administrasiyalarının nümayəndələri ilə, bu və ya digər məsələyə cavabdeh olan rəsmi şəxslərlə ünsiyyətdə olmaq imkanı yaransın. Buna görə biz azərbaycanlılara və ya Azərbaycan xalqına Rusiya haqqında danışmaq baxımından deyil, Azərbaycanın kütləvi informasiya vasitələrinə müəyyən maraqlı və aktual məsələləri işıqlandırmaq üçün press-turlar təşkil etməyə hazırıq və Azərbaycan KİV-lərini məmnuniyyətlə dəvət edirik. Bu da əməkdaşlığın bir tərəfi. Ümumiyyətlə, bu istiqamətdə çox iş görülür və əlbəttə, əla perspektivlər var.

*-Avqust ayında Moskvada Rusiya-Azərbaycan-İran sammiti keçirilməlidir. Bu görüşün gündəliyində hansı məsələlər var?*

-Bir daha demək istəyirəm, sammitlərin tarixini və digər təfərrüatını mən şərh edə bilmərəm. Bu sammit yeni formatlardan biridir. O, nisbətən yaxın vaxtda yaranıb, lakin daha bir dialoq imkanı kimi, müxtəlif mövzuların müzakirə edilməsi üçün məkan kimi özünü çox yaxşı cəhətdən göstərib. Buna görə də həmin format, əlbəttə, inkişaf edəcək. Əgər belə formatlar varsa və onlar inkişaf edirsə, sammitlər bu formatda mümkün olan görüşlərin ən ali nöqtəsi, ən yüksək formasıdır. Lakin bu xətt üzrə dialoq diplomatlar, bizim səfirliklər, Xarici İşlər nazirlikləri səviyyəsində inkişaf edir. Sammitin özünə gəldikdə isə bunu şərh etmək hələ tezdir.

## Ermənistanda əsgər yeməkləri satışa çıxarılıb



Ermənistanda müxtəlif satış nöqtələrində əsgərlər üçün istehsal edilən məhsulların satışı aşkarlanıb. SİA Ermənistan mətbuatına istinadən xəbər verir ki, ölkənin ərzaq təhlükəsizliyi xidmətinə "Əsgər payı" markası olan məhsulun başqa bir adla maskalandığı məlum olub.

Satış üçün nəzərdə tutulmamış hərbi məhsulun üzərinə əlavə kağızda "mal əti konservi" etiketi vurulub. Etiketin üzərində konservin içərisinə daxil olan ərzaqlar da sadalanıb. İstehsalçı H.A.N.S.-FOOD LLC hərbi məhsulların satışa çıxarılmasını işçilərin səhvi kimi qələmə verib. Şirkətin bəyanatına görə işçilər sadəcə sifarişləri qarışıq salıb.

# Paşinyanın Brüssel iflası: erməni hökumət başçısının dilənçiliyi

***Ermənistanın yeni hakimiyyətinin perspektivsiz xarici siyasət kursunu seçdiyi haqqında ekspert fikri mövcuddur. Nikol Paşinyan baş nazir postuna gələndən ortada yeni heç bir şey yoxdur. Ermənistanın daxili həyatı sanki sönüb, iqtisadiyyatda durğunluq davam edir. İllərdir Serj Sarkisyanın uğurlu daxili siyasət apardığını yazan kütləvi informasiya vasitələri indi də N.Paşinyandan eyni həvəslə yazır. Lakin S.Sarkisyanın sonu məlumdur. N.Paşinyanı da eyni aqibət gözləyir. Bu, onun Brüssel səfərindən sonra daha aydın görünür. Ermənistanın baş nazirinin özü Brüssel hava limanında jurnalistlərə bildirib ki, Avropa İttifaqı Ermənistana münasibətini dəyişsə, yaxşıdır. Brüssel erməni inqilabından ağızdolusu danışır, lakin heç bir konkret addım atmır. Ona görə də ya pafoslu danışıqlara son versinlər, ya da siyasətlərini dəyişsinlər. Deməli, faktiki olaraq N.Paşinyan Brüsseldən məyus qayıdıb. Əliboş dönüb. Bu məqam əslində İrəvanın apardığı siyasətin çürüklüyünün bir daha təsdiqidir. Bütövlükdə götürdükdə, N.Paşinyanın Brüssel səfərinin iflasının təhlili üzərində dayanmağa ehtiyac duyulur. Həm də bu, Azərbaycan rəhbərinin çox uğurlu Brüssel səfəri fonunda xeyli maraqlı görünür.***

### Siyasi köləlik: Brüssel səhnəsində

Nikol Paşinyanın Brüsseldə çəkdirdiyi fotolarda beli və boynubükük görünməsi şəkil çəkənin ustalığının nəticəsi deyil. Ermənistanın yeni baş naziri təbiətən boynubükük və başqalarının əmrini yerinə yetirən kölədir. Bu, onun siması, kimliyinin real təqdimatıdır. Sözdə reallaşdırdığı siyasətin ruhu da köləlikdən yoğurulub. Ekspertlər Brüsseldə bir daha bunun əyani şahidi oldular.

Öncədən ermənilər yeni baş nazirin Brüsselə səfərindən bir təbliğat kampaniyası düzəltməyə çalışdılar. Bəyan etdilər ki, əgər NATO-nun sənədlərində Ermənistanı qane etməyən məqamlar olsa, səfər baş tutmayacaq. Nələrdən ibarət imiş bu "erməniləri qane etməyən məqamlar"? Əlbəttə, Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi məsələsini nəzərdə tuturdular. Bununla yanaşı, Azərbaycanın öz işğal edilmiş ərazilərini azad etmək haqqının tanınması da prinsipial əhəmiyyət daşıyır.

NATO və Avropa İttifaqının sənədlərində Azərbaycanın ərazi bütövlüyü tam dəstəkləndi, ancaq N.Paşinyan Brüsselə getdi. O, öz sözünü yedi. Həm də hər hansı iradını bildirmək üçün deyil, pul dilənmək, yardım istəmək və Azərbaycan Ordusunun qarşısının alınması üçün NATO-nun tədbir görməsini xahiş etmək üçün getdi. Bu barədə Rusiya KİV-lərində maraqlı yazılar dərc edilməkdədir (bax: məs., Andrey İvanov. Paşinən kopiruet Poroşenko / News.ru, 17 iyul 2018).

Andrey İvanov vurğulayır: "Bununla Paşinyan diplomatiyası bitdi, çünki dostluq haqqında vədlərdən sonra dərhal pul xahiş etməyə başladı. "Ermənistanın demokratikləşmə cəhdlərini" Brüsseldə ildə 10 milyon avro əlavə yardım etməklə qiymətləndirdilər. Bu miqdarla nəhəng layihələr reallaşdırmaq mümkün deyil və erməni baş nazir Aİ-nin nümayəndələrindən biri ilə görüşdə deyib ki, "demokratik Ermənistan özünə qarşı daha ciddi münasibət gözləyir"" (bax: əvvəlki mənbəyə). Bu fikirlər üzərində bir qədər geniş dayanaq.

N.Paşinyan diplomatiyası harada bitib? Birincisi, Brüssel səfəri N.Paşinyanın Moskvanı şantaj etmək işində son fraqmentdir. Çünki bu vaxta qədər erməni baş nazir Rusiyaya sadiq və yaxın müttəfiq olmaqla yanaşı, Aİ, ABŞ və NATO ilə də əməkdaşlıq etməyə üstünlük verdiklərindən danışırdı. Bu zaman Brüsselə NATO-nun tədbirinə səfəri Rusiya vətəndaşlarına tanışlıq məqsədi ilə edilən səfər kimi təqdim edirdi. "Yeni baş nazir Nikol Paşinyan sadəcə Qərbin dostu olmaq istəmir, həm də Rusiyaya düşmən əhval-ruhiyyəsində olan NATO-nun tərəfdaşı olmağa çalışır. Paşinyan KTMT-yə üzv ölkələrdən birinin yeganə lideridir ki, alyansın 11-13 iyul Brüssel sammitində iştirak etdi" (bax: əvvəlki mənbəyə).

### Moskvanın qəzəbi: satqınlığın sərhədi

Bunlar Nikol Paşinyanın kadr siyasəti kontekstində təsadüfi görünmür. News.ru portalının yazdığına görə, anti-Rusiya fəaliyyətində olanlardan Nazirlər Kabinetində yüksək vəzifələrə təyinat edib. Məsələn, diaspor üzrə nazirin müavini Babken Ter-Qriqoryan Soros Fondunun koordinatoru olub. O, hətta N.Paşinyan inqilabı zamanı meydanda Vladimir Putin əleyhinə sərt ifadələr olan plakatı əlində tutub.

Yeni mədəniyyət naziri Lilit Makunts 2016-cı ildə ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ) ilə əlaqəsi olan Sülh Korpusunda çalışıb. Əmək naziri Mane Tandilyan Ermənistanın Avrasiya İqtisadi İttifaqından çıxmasını açıqca təbliğ edir. Ekspertlərin təxmininə görə, bütün bunları N.Paşinyan Moskvanı şantaj etmək üçün edir. O, mesaj verir ki, "mən sizin yeganə tərəfdarınızam və mənə dəstək verməsəniz, Ermənistan Qərb tərəfə keçəcək" (bax: əvvəlki mənbəyə).

Lakin Brüsseldə N.Paşinyanın ifadə etdiyi fikirlər və görüşməyə can atdığı adamların siyasi kimliyi göstərir ki, erməni liderin Kremlə qarşı aparmaq istədiyi şantaj siyasəti öz potensialını tükədib. Çünki N.Paşinyanın özünün siyasi kimliyi atdığı addımlardan aydın görünür. Moskva belə şeylərə inanmır və N.Paşinyanın səviyyəsiz bir siyasətçi olduğunu, öz yaxın tərəfdaşından imtina etməyi düşündüyünü və bunun üçün özünü Qərbə satmağa hazır olduğunu gördü. Məlum oldu ki, N.Paşinyanın Rusiya ilə bağlı dedikləri də yalan imiş və Ermənistanın xarici siyasət kursunu dəyişmək planı vardır. Bu mənada N.Paşinyanın primitiv manevrlərlə dolu siyasəti və diplomatik "hiyləgərliyi" bitib!

Ermənistanın yeni baş naziri daxili siyasətdə də bitmiş kimi görünür. Ekspertlərin fikrincə, onun Brüssel səfərini böyük diplomatik uğur adlandırmasına baxmayaraq, bu fikrin arxasında reallıq dayanmır. Məsələn, Ermənistanın hakimiyyətə yaxın KİV-lərində N.Paşinyanın bir sıra Qərb ölkələri liderləri ilə görüşünü aktiv təhlil edir, onu dövlətçiliyə xidmət kimi qələmə verməyə çalışır, hətta bəzi avropalı siyasilərin fikirlərindən sitat gətirir, N.Paşinyanın onlara dediklərindən bəhs edirlər.

Ancaq reallıqda heç bir işgüzar görüş olmayıb. N.Paşinyan avropalı liderləri küncdə-bucaqda gözləyərək qarşılarına çıxıb, özünü təqdim edib və onlar da nəzakət xatirinə ayaqüstü söhbət ediblər, yaxud qısa müddətdə oturub haləhval tutublar (bax: əvvəlki mənbəyə). Danışıqların heç birində də konkret mövzu olmayıb. Heç bir avropalı siyasətçi N.Paşinyana nəyisə vəd etməyib. Ümumi əlaqələr haqqında fikir mübadiləsindən başqa bir məsələ müzakirə edilməyib.

ABŞ Prezidenti Donald Trampla bağlı isə N.Paşinyan üçün çox gülünc olan bir vəziyyət yaranıb. N.Paşinyan ABŞ Prezidentinin həyat yoldaşı ilə çıxa biləcəyi qapının küncündə gözləyirmiş. Ancaq Prezident görünməyib. Ona çatdırıblar ki, D.Tramp və həyat yoldaşı arxa qapıdan bağçaya çıxıb. N.Paşinyan dərhal ona tərəf götürülüb. Qaçaraq D.Trampa çatıb və dişlərini ağardaraq əlini uzadıb. Təəccüblənən D.Tramp etika xatirinə onun əlini sıxıb və bu zaman fotoları çəkiblər (bax: əvvəlki mənbəyə).

Bütün bunları müşahidə edən jurnalistlər N.Paşinyanın ləqəbini "liderlərin qarovulçusu" qoyublar. Daha dəqiqi "liderlərin yengəsi" ləqəbi olardı! Rusiyalı jurnalistin ümumiləşdirməsi isə doğrudan da maraqlıdır. A.İvanov yazır: "Ümumiyyətlə, Ukrayna Prezidenti Petro Poroşenkonun dəfələrlə oynadığı ssenari təkrarlanır. O, sammitdə Qərb liderlərinin arxasınca qaçır və fotokameraya düşməyə çalışırdı. Ancaq Ukrayna Prezidenti Ermənistanın baş nazirindən fərqli olaraq bu zaman "çoxvektorlu siyasət"dən danışmır və bir neçə stulda oturmağa cəhd göstərmir" (bax: əvvəlki mənbəyə).

Bu fikirlərdə də N.Paşinyanın bir siyasətçi kimi simasızlığı aydın təsvir edilir. P.Poroşenko birmənalı olaraq mövqeyini dəqiq ifadə edir. N.Paşinyan isə primitivcəsinə hamıya yalan satır - Moskvada Rusiya ilə, Brüsseldə isə Aİ ilə birlikdədir! Hərbi sahədə həm KTMT-dədir, həm də NATO ilə əməkdaşlıqda! Özü də bu zaman Ermənistanı Azərbaycanla müqayisə etməyə cəhd göstərir. Reallıqda isə bu ölkələrin hərbi-müdafiə siyasəti və təhlükəsizlik konsepsiyaları müqayisə oluna bilməz. Çünki Azərbaycan birmənalı olaraq müstəqil və balanslaşmış siyasət yeridir. Azərbaycan heç bir hərbi alyansın üzvü deyil. Onun Avropa ölkələri ilə də, Avrasiya İttifaqı ölkələri ilə də əməkdaşlığı uzun illərdir ki, bir-birindən asılı olmadan davam edir. Azərbaycan nə KTMT-yə can atır, nə də NATO-ya. Bakı öz milli maraqlarına uyğun olan məsələlərdə bərabərhüquqlu əməkdaşlıq qurur. Bu səbəbdən də nə Vaşinqton, nə Moskva, nə də Brüssel Azərbaycanın siyasətini tənqid etmir. Çünki buna əsasları yoxdur.

Ermənistan isə KTMT-yə, daha dəqiqi, Rusiyanın hərbi imkanlarına sığınıb, NATO ilə hərbi əməkdaşlıqdan dəm vurur. Hətta həyasızcasına NATO-ya irad bildirir ki, niyə Azərbaycana mesaj vermirsiniz ki, hərbi əməliyyatlara başlasa, ona sarsıdıcı zərbə vurulacaq. "Euronews"a verdiyi müsahibədə N.Paşinyan bəyan edib ki, Şimali Atlantika Alyansı Azərbaycana "güclü mesaj" verməlidir. Və əgər Dağlıq Qarabağı azad etmək istə-

## Robert Köçəryan: "Gedib oturacağam"



Ermənistanda dərc edilən "Hraparak" qəzeti ölkənin ikinci prezidenti Robert Köçəryanın istintaqa getməmişdən öncə siyasi həmkarlarına həbs olunacağını deyib. SİA xəbər verir ki, adıçəkilən qəzetin yazdığına görə, Köçəryan ifadə verdikdən sonra, "Yerkir Media"ya müsahibəsində ona qarşı rəsmi ittiham irəli sürüldüyünü deyib və bunu dövlətçiliyin əsasına qoyulmuş bomba" olaraq qiymətləndirib.

"Hraparak" isə yazır: "Bizdə olan məlumata görə, istintaqa getməmişdən öncə, o öz siyasi həmfikirlərinə gedib oturacağını, yəni həbsxanaya salınacağını bildirib və sona qədər mübarizə apararaq, "günahsız olduğunu" sübut edəcəyini deyib. Xatırladaq ki, Robert Köçəryan 1 mart qırğınlarında əsas ittiham olunan tərəf kimi istintaqa cəlb olunub. Mövcud Nikol Paşinyan hökuməti isə Köçəryan və həmfikirləri tərəfindən "siyasi terror" törətməkdə ittiham edilir.

## Erməni generala qarşı ittiham irəli sürülüb



Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsinin baş katibi Yuri Xaçaturova ittiham irəli sürüb. SİA Ermənistan mətbuatına istinadən xəbər verir ki, Ermənistanın Xüsusi istintaq xidməti Xaçaturovu 2008-ci il martın 1-2 Yerevan hadisələrinə görə ittiham edilir.

Xaçaturov digər şəxslərlə birgə respublikada konstitusiya nizamını devirməkdə ittiham edilir. Ermənistanın Xüsusi istintaq xidməti ittihamın kifayət qədər sübut əsasında irəli sürüldüyünü bildirib. Müstəntiq İrəvanın birinci instansiyası məhkəməsinə Xaçaturova qarşı həbs qətimkan tədbiri barədə müraciət edib. Qeyd edək ki, Yuri Xaçaturov Rusiyanın rəhbərliyi ilə NATO-ya qarşı təşkil edilmiş Ermənistan, Belarus, Qazaxıstan və Tacikistanın da daxil olduğu alyansın baş katibidir.

# Paşinyanın Brüssel iflası: erməni hökumət başçısının dilənçiliyi



sə, “Qərb bunu yalnız və yalnız bütün dünyada demokratiyaya olan təhlükə kimi qəbul etməlidir” (bax: əvvəlki mənbəyə). Ancaq NATO-da bu fikir təəccüb doğurub, çünki Qərb ölkələrinin liderləri dəfələrlə deyiblər ki, Azərbaycanın ərazi bütövlüyünü tanıyırlar. NATO da Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edib və müvafiq sənədlərdə həmin məqam əks olunub. NATO həm də bu kimi təxribatlara onu qarışdırmağın perspektivsiz olduğunu vurğulayıb.

Növbəti yalan: “erməni demokratiyası” nağılları

Nikol Paşinyanın bu addımı nəyi ifadə edir? Hər şeydən əvvəl, bu adamın həqiqətən də siyasətdən xəbəri yoxdur. Məhdud erməni düşüncəsi ilə dünyanı öz məhəlləsi sayır və “qabadayılıq” etməyə cəhd göstərir. Sonra aydın olur ki, onun Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı gedən proseslərdən düz-əməlli xəbəri yoxdur. Belə ki, əgər N.Paşinyanın NATO-nun, Aİ-nin, AŞPA-nın, BMT-nin qəbul etdiyi sənədlərdən xəbəri olsaydı, gülünc fikir ortaya atmazdı. Təsəvvür edin ki, BMT-nin dörd qətnaməsində Ermənistandan işğal etdiyi Azərbaycan torpaqlarından çıxması tələb olunur, N.Paşinyan isə Ermənistanı regionun “demokratiya beşiyi” kimi təqdim etməyə çalışır. Guya bütün dünya bu “demokratiya beşiyi”ni qorumalıdır.

Bu zaman erməni diplomatiyasına xas olan adi bir səhv nəzərə alınmır: Dağlıq Qarabağda erməni əsgəri işğalçı kimi mövcuddur! Bu torpaqları ermənilər xarici yardım hesabına 1988-ci ildən başlayaraq zəbt ediblər. Günahsız insanları qətlə yetiriblər. Uşaqları, qadınları, qocaları amansızcasına öldürüblər, onları diri-diri yandırıblar, quyulara atıblar. Dünya dövlətləri Xocalı hadisələrini soyqırımı kimi tanımağa başlayıb. İndi bir küçə adamı düşüb ortalığa ki, Ermənistan Cənubi Qafqazda “demokratiya beşiyi”dir.

Əslində, rəsmi İrəvanın yeni bir təbliğat oyununa başlamaq istədiyi açıq görünür. Lakin bəri başdan deyək ki, bu, süni, əsassız və kimsəni maraqlandırmayan hoqqadan başqa bir şey deyildir. Belə ki, N.Paşinyan hakimiyyəti və onun KİV-dəki qulbeçələri yeni hökumətin demokratik obrazını formalaşdırmağa çalışırlar. Onlar atdıqları bir-iki addımla Qərbə göstərmək istəyirlər ki, İrəvan artıq demokratik və müstəqil olmağa qərar verib. Korrupsiya ilə mübarizə aparır, yeni gənc kadrlar təyin edir. Eyni zamanda, Rusiyanın hərbi-sənaye kompleksi və “Qazprom”un təsirindən qurtulmaq yolunu tutub. Lakin təkbaşına buna gücü çatmaz, ona görə də Qərb dəstək verməlidir.

Ermənilərdə belə sadəlövh təsəvvür var ki, dünyanın harasında olursa-olsun, demokratiyaya can atanlar varsa, Qərb onların şəksiz xilaskarı olur. İndi N.Paşinyan da Brüsselin dəhlizlərində onun-bunun ardınca sülənərək “Ermənistanda demokratiya var” təbliğatını aparmağa çalışır. Hesab edir ki, bununla Qərb siyasətçiləri “hurrey” deyib, İrəvana axışacaqlar. Və bununla da Ermənistanı hər bir məsələdə, hətta Azərbaycanın torpaqlarını işğalda saxlamaqda dəstəkləyəcəklər. Deməli, faktiki olaraq N.Paşinyan Qərbi də şantaj edir, ona təcavüzkarın yanında durmağı təklif edir.

N.Paşinyan bunu həm də çox qorxduğundan edir. Erməni siyasətçiləri daim hay-haray salırlar ki, Azərbaycanı hərbi əməliyyatlar keçirməyə qoymasınlar. Bilirlər ki, Azərbaycan Ordusu erməni silahlı qüvvələrini darmadağın edəcək. Özünü çox güclü hesab edən erməni ordusu indi Avropaya yalvarır ki, müharibəyə imkan verməsin. Bu qorxu Brüsseldə açıq-aşkar hiss olundu. Bəlkə də elə həmin duyğular N.Paşinyanı onun-bunun arxasınca qaçmağa məcbur edib. Əgər o, Ermənistan ordusunu güclü hesab etsəydi və savaşdan qalib çıxacağına inansaydı, şübhəsiz, indi özünü göylərdə apardı. Brüsselə də getməzdi, Moskvadan da küsməzdi. Bu o deməkdir ki, N.Paşinyanın addımlarında Azərbaycan qorxusu açıq mövcuddur və o, psixoloji olaraq artıq məğlub durumdadır. Azərbaycan rəhbərliyinin apardığı uğurlu və davamlı siyasət Ermənistan rəhbərliyini yerində oturdub. N.Paşinyan Brüsseldə də Azərbaycanın siyasəti qarşısında diz çökdü!

Əlbəttə, həm də N.Paşinyandan başqa heç bir erməni rəhbər həm də Avropada çox yaxşı görürlər ki, Ermənistan Azərbaycanın torpaqlarını xarici yardım hesabına işğal edib və nə zamansa oranı mütləq tərk etməlidir. Bunun başqa variantı yoxdur. Həmin səbəbdən də, kimsə ciddi səviyyədə rəsmi İrəvanın yanında dura bilməz. Fraqmentar olaraq onu hansısa məsələlərdə konkret məqsədlərə görə dəstəkləyə bilərlər. Ancaq davamlı dəstək və yardım mümkün deyildir.

Deməli, Ermənistan diplomatiyası çox primitiv üsulla Azərbaycanın təhlükəsizlik siyasətini və ordu quruculuğu kursunu təhrif etməyə çalışır, lakin hər dəfə biabır olur. Əvəzində, N.Paşinyana xəbərdarlıq edilir ki, eyni zamanda, bir neçə stulda oturmasın, yoxsa ciddi xəsarət ala bilər!

Əslində, avropalıların özləri də N.Paşinyanın peşəkar siyasət yeridə biləcəyinə inanmırlar. Bu barədə hətta açıq fikir bildirirlər. Məsələn, Aİ-nin Ermənistandakı səfiri Pyotr Svitalski erməni baş nazirin açıq dilənçiliyinə reaksiya verərək deyib ki, Avropa İttifaqı elə bu gün də Ermənistanın əsas sponsorudur. Yardım proqramı isə apreldə Ermənistanda hakimiyyət dəyişikliyindən əvvəl qəbul edilib. Bundan başqa, rəsmi İrəvanın Brüssel siyasətində əhəmiyyətli dəyişiklik müşahidə edilmir. Buna görə də, P.Svitalski istehza ilə sual edir: “Ermənistanın Aİ-yə qarşı dəyişməz siyasəti Avropa İttifaqının Ermənistan siyasətində dəyişikliyə gətirib çıxarmalıdır?”.

Çıxış yolu: yenə də vassallıq

Bəli, rəsmi İrəvanın gülünc və əsassız siyasi iddiaları Avropa siyasətçilərində gülüş doğurur. Onlar Ermənistanın doğru yolda olmadığını açıq deyirlər. Ondan ciddi siyasi kurs tələb edirlər. Bununla Ermənistanın geosiyasi kursunun daha bir qüsuru ortaya çıxmış olur. İndi Avropa da Ermənistanı səbatsız mövqe tutmaqda ittiham edir. Brüssel göstərir ki, hər şey yardımlara bağlı deyil, real əməkdaşlıq üçün səmərəli və ölçülü-biçili siyasət xətti seçmək gərəkdir. Bu imkandan isə İrəvan tamamilə məhrumdur. Çünki Ermənistanı ermənilər deyil, Rusiya yaradıb! Ermənistan siyasi, iqtisadi və geosiyasi olaraq Kremlin iradəsindən tam asılıdır. Moskva isə xəyanəti bağışlamır!

Bunların fonunda Azərbaycan Prezidenti İlham Əliyevin Brüssel səfəri çox uğurlu təsir bağışlayır. İyulun 10-12-də baş tutan həmin səfər zamanı iki mühüm sənəd imzalanıb. Onlardan biri Aİ ilə əməkdaşlığın prioritetləri ilə bağlı olub. Sənəddə Aİ tarixində ilk dəfə olaraq sərhədlərin toxunulmazlığı öz əksini tapıb. NATO-nun qəbul etdiyi sənəddə də Azərbaycanın ərazi bütövlüyünün təmini məsələsi ayrıca vurğulanıb. Bütün bunlarla bağlı Azərbaycan Prezidenti İlham Əliyevin ifadə etdiyi fikirlər çox maraqlıdır. Dövlət başçısı deyib: “Azərbaycan NATO və bu təşkilatın üzv dövlətləri tərəfindən ölkəmizin siyasi müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə və Ermənistanla münaqişənin bu prinsiplərə əsaslanan həllinə verdiyi davamlı dəstəyi yüksək qiymətləndirir” (bax: Brüsseldə NATO-nun Əfqanıstanda Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşü keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev görüşdə iştirak edib /AZƏRTAC, 12 iyul 2018).

Nikol Paşinyan heç bir sənəd imzalaya bilməyib. Onun NATO-nun yekun bəyannaməsinə xalqların öz müqəddəratını təyinetmə prinsipini daxil etmək cəhdi də iflasa uğrayıb. N.Paşinyana F.Moqerinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dedikləri də tərs sillə kimi dəyib. Aİ rəsmisi açıq bildirib ki, heç bir ön şərt qoymadan danışıqları ATƏT-in Minsk qrupu çərçivəsində davam etdirmək gərəkdir. Bu o deməkdir ki, Aİ danışıqlara Dağlıq Qarabağ separatçılarının qatılmasını qəbul etmir. Deməli, N.Paşinyanın küçədə verdiyi əsas vəd də boşa çıxıb. Bu mənada da onun siyasəti bitib!

İndi N.Paşinyan üçün hansı çıxış yolu qalıb? Ekspertlər deyirlər ki, o, seçim qarşısındadır: 1) Ermənistanı NATO-nun Cənubi Qafqazdakı hərbi bazasına çevirmək və əlavə maliyyə yardımı verilməsini xahiş etmək; 2) və ya özünü Qərbə yaxınlaşan kimi göstərməklə Moskvadan pul xahiş etmək. “Üçüncü variant da vardır - müstəqil güclü iqtisadiyyat yaradıb, inkişaf etdirmək. Ancaq, görünür, bu ssenariyə N.Paşinyan ciddi baxmır” (bax: əvvəlki mənbəyə).

Göründüyü kimi, bu, Nikol Paşinyanın faktiki olaraq siyasi iflası deməkdir. Onun başqa çıxış yolu qalmayıb. Ya Qərbə satılmalı, ya da illərdir satıldığı Moskvanın çətiri altında daha dərinliklərə getməlidir. Ekspertlər də hesab edirlər ki, müstəqil inkişaf kursu rəsmi İrəvan üçün əlçatmazdır. Əslində, bu barədə Azərbaycan çoxdandır fikir bildirir. Hətta təklif edir ki, işğaldan əl çəksin. Bu halda onunla əməkdaşlıq məsələsinə yenidən baxılacaq. Hər dəfə olduğu kimi, bu dəfə də Ermənistan rəhbərliyi düşmənçilik və təcavüz yolunu seçir. Bunun da bədəlini çox ağır şəkildə ödəyəcəklər.

Eyni zamanda, görünür ki, dünyanın heç bir geosiyasi güc mərkəzi təcavüzkarın yanında durmaq arzusunda deyil. Artıq haqq-ədaləti bərpa etməyin zamanıdır. Əks halda, dünya xaoslardan, risklərdən, terrordan və böhranlardan qurtula bilməyəcək. Bu mənada bəşəriyyət də seçim qarşısındadır!

# “Maariv”: Azərbaycan Cənubi Qafqazın turizm incisi və həqiqi ulduzudur



תיירות

היסטוריה, תרבות ונופים: הישראלים מגלים את אזרבייג'אן

היא שינתה את פניה לאחר גילוי הנפט בשטחה, אבל שומרת על המסורת, ואף שרובה מוסלמית, היא מושיטה את ידיה בברכה ליהודים. קבלו את הכוכבת העכשווית של הקווקז

איריס ז'ורלט / 26/07/2018 16:57

תגיות: אזרבייג'אן, באקו

באקו. (צילום:איגנ אימס)

***Bu il məhz Azərbaycan Cənubi Qafqazda israilli turistlər üçün həqiqi ulduza çevrilib. Şərq və Qərb sivilizasiyalarının kəsişməsində yerləşən bu ölkədə hər iki sivilizasiyanın təsiri hiss olunur. Burada heyrətamiz görməli məkanlar çoxdur: Tunc dövrünün petroqlifləri, orta əsrlər dövrünə aid minarələr və məscidlər və əlbəttə, nadir təbiət. Azərbaycan Respublikası Xəzər dənizinin sahilində yerləşən turizm incisidir. O, özünün turizm potensialı ilə öyünə bilər. Burada siz ovsunlayıcı və cəlbedici nə varsa, hamısını bir arada görəcəksiniz: dağlar, şəlalələr, çaylar, göllər, mineral bulaqlar və dünyada yeganə müalicəvi neft yatağı. Əhalisinin böyük əksəriyyəti müsəlmanlardan ibarət olan neftlə zəngin bu ölkə həm də əsl dünyəvi dövlətdir.***

AZƏRTAC xəbər verir ki, bu barədə israilli jurnalist İris Qorlet ölkəsində çıxan nüfuzlu “Maariv” qəzetində dərc olunmuş “Tarix, mədəniyyət və üfüqlər: israillilər Azərbaycanı kəşf edirlər” sərlövhəli məqaləsində yazıb.

Bir çox konfessiyaların nümayəndələrinin artıq min ildir Azərbaycanda mehribanlıq şəraitində dinc yanaşı yaşadığını vurğulayan məqalə müəllifi yazır: “2500 ildən çoxdur ki, burada mötəbər və nüfuzlu yəhudi icması yaşayır. Bir çox ekspertlər qeydlər edir ki, yəhudilər bu ərazidə Yəhudi çarlığı dövründən məskunlaşıb. Odlar Yurdunda müxtəlif iqlim qurşaqlarını, yeniliklə köhnəliyin sintezini görmək olar. Qədim məscidlərin böyründə ultramüasir binalar da görmək olar. Müstəqilliyi bərpa olunandan sonra Azərbaycan Respublikası qısa müddətdə beynəlxalq tədbirlərin, müxtəlif yarışların, “Eurovision” mahnı müsabiqəsinin və Formula 1 Azərbaycan Qran-Prisinin keçirilməsi üçün həqiqətən möhtəşəm platformaya çevrilib”.

İ.Qorlet yazır ki, 2017-ci ildə bu Cənubi Qafqaz ölkəsində turistlərin sayı 20 faiz artaraq, ümumən 2,6 milyon nəfərə çatıb.

“LeMetayel” veb-saytının redaktoru Yael Kfir deyir: “Biz Azərbaycana turizm axınının 100 faizdən çox artdığını və paytaxt Bakıya marağın daha da gücləndiyini görürük. Başqa sözlə desək, əgər Azərbaycanda istirahətdən və ya bu ölkəyə səyahətdən danışırsınızsa, hazırda diqqət mərkəzində Bakıdır. Hər halda israillilər üçün belədir”.

Qüdsdə yerləşən Yəhudi Universiteti nəzdindəki Trumen İnstitutunun antropoloqu və mühazirəçisi doktor Xen Bram dəhşətli Holokost illərində Avropa yəhudilərinin xilas edilməsində Azərbaycanın böyük rol oynadığını qeyd edərək deyir: “Təqribən on il əvvəl Azərbaycanda turist qruplarına rəhbərlik etməyə başlayanda, turizm xidmətləri, demək olar, yox dərəcəsində idi. Bugünkü Azərbaycan daha əmin-aman olan başqa bir aləmdir. Ölkənin turizm landşaftı sürətlə dəyişir. İndi Azərbaycanda İsraildən gəlmiş çoxlu turist qruplarına təsadüf etmək olar. Azərbaycan israilli turistlər üçün çox təhlükəsiz ölkədir. Azərbaycan xalqı isə çox qonaqpərvər və mehribandır. Bu da turistləri daha çox cəlb edir. Biz bu ölkədə ənənəviliklə müasirliyin gözəl vəhdətini görə bilərik”.

Yerli sakinlərin çox qonaqpərvər və mehriban olduğunu xüsusi vurğulayan məqalə müəllifi yazır: “Azərbaycana gələn israillilər onların təhlükəsizliyinin çox yüksək səviyyədə olduğunu hiss edirlər. Turistlərin İsraildən gəldiyini eşidən yerli sakinlərin sanki gözləri işıldayır, səmimiyyət və fərəhlə baxır”.



"מבחינת תחושת הביטחון, אזרבייג'אן היא מקום מדהים לישראלים", אומר אריה גוט, קונסול הכבוד של אזרבייג'אן בישראל. "האנשים מאוד נחמדים ומכבדים את המדינה ישראל, ובלב של העם האזרי יש אהבה גדולה ליהודים. הנשיא אילהם אלייב בנה שני בתי כנסת חדשים לעם היהודי בארבע שנים. בהשוואה לאוקראינה ולרוסיה, יהודי המדינה מעולם לא ידעו מה זה אנטישמיות ופוגרומים. הם ידעו רק אהבה, כבוד ויחס חם מצד העם האזרי. יש יחסים מדהימים בין ישראל לאזרבייג'אן, דיאלוג מדיני ברמה הכי גבוהה וסחר כלכלי בהיקף של 5.5 מיליארד דולר בשנה, וגם יחסים אסטרטגים ברמה צבאית ומודיעינית ונשר אנושי מדהים בין העמים".

שמורת גובוסטאן. צילום מתוך ויקיפדיה

Bakıda doğulmuş, hazırda baş aşpaz işləyən, şəxsi kulinariya məktəbi olan Ella Barlev deyir: “İstirahətin kulinariya tərəfi israillilər üçün çox əhəmiyyətlidir. Təl-Əvivdən Bakıya uçuş müddəti çox qısadır, 3 saatdan azdır. Mənim üçün Bakı uşaqlıq dövrümün ən gözəl şəhəridir. Bakı çox təmiz şəhərdir. Burada yeməklər çox ləzzətlidir, insanlar isə çox mehriban və qonaqpərvərdir. Arxitektura da son dərəcə gözəldir. Avropa arxitekturasının, onun inteqrasiya olunduğu qədim milli memarlıq ənənələrinin və ultramüasir arxitekturanın vəhdəti yaranıb. Bu vəhdət şəhərə çox gözəl görkəm verir. Ümumi təhlükəsizlik hissi. İnanılmaz dərəcədə gözəl bulvar. Uzunluğu 25 kilometrə çatan Bakı bulvarı, yəqin ki, dünyanın ən gözəl bulvarıdır. Mən lap balaca olanda onun uzunluğu cəmi 3 kilometr idi. Bulvar çox gözəldir və paytaxtın az qala bütün sahilyanı ərazisi boyunca uzanır. Dünyanın müxtəlif ölkələrindən bura ağaclar gətirilib. Bu da ona müstəsna gözəllik verir. Azərbaycan mətbəxi çox ləzzətlidir. Hər bir evdar qadın mahir aşpazdır, çünki mətbəx Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsidir”.

İris Qorlet daha sonra yazır ki, Azərbaycan təkcə Bakı şəhərindən ibarət deyildir. Maraqlı və qeyri-adi məkanlar göstərmək üçün bu ölkənin israilli turistə təklif edəcəyi imkanlar xeyli genişdir. “Məsələn paytaxtdan cənubda yerləşən Qobustan qoruğu. Qoruğun ərazisində cırtdan vulkanlar, bulanıq hövzələr, habelə sanki yerin altından dik qalxan bazalt qayalar və üzərində tarixdən əvvəlki dövrdə insan və heyvan fiqurlarının təsvir olunduğu qayalar var.

Böyük Qafqaz dağlarına gedən yolda “dağ yəhudiləri” adı ilə də məşhur olan Qafqaz yəhudilərini görə bilərsiniz. Quba şəhərində, “Qafqazın Qüdsü” adlandırılan Qırmızı Qəsəbədə böyük yəhudi icması məskunlaşıb.

Doktor Bram Azərbaycanda yəhudilərin həyatını hiss etməyə imkan verən başqa yaşayış məntəqəsindən də danışır. Bu, Azərbaycanın şimal-qərbində dağların ətəyində yerləşən Oğuz şəhəridir. Müəllif yazır: “Burada iki sinaqoq qalıb, onlardan biri muzeydir. Yəhudilər bu şəhərdə müsəlman azərbaycanlılarla qardaş kimi dinc yanaşı yaşayıblar”.



לא רק מסעדות: חיי הלילה בבאקו מאוד מפותחים, ויש בה שלל ברים ומועדונים מפוארים. בחלקם ישנם כללים נוקשים, למשל שאי אפשר להיכנס ללא בן או בת זוג. בעיר עצמה ישנם חוקים נוספים שכדאי להקפיד עליהם, ובהם לחצות את הכביש רק במעבר חציה, לא לצלם בתחנת המטרו ואם אתם רוכשים חפצי אמנות, הקפידו שתהיה להם תעודה מיוחדת המאשרת את רכישתם.

אין שני לו. מוזיאון השטיחים. צילום: Christopher Lee\GettyImages

גשר בין העמים

אבל אזרבייג'אן היא לא רק באקו, ויש למדינה עוד הרבה להציע לתייר המבקר בתחומה. למשל שמורת גובוסטאן, הממוקמת דרומית לעיר הבירה. בתחומה ישנם הרי געש ננסיים ובריכות שבהם מבעבע בוץ, וגם סלעי בזלת המזדקרים מהקרקע וסלעים שבהם ציורים פרה־היסטוריים, המתארים דמויות של בני אדם ובעלי חיים המתוארכים ל־10,000 שנה, לא פחות.

İ.Qorlet öz məqaləsində vurğulayır ki, Azərbaycana səfər edən israilli turist əzəmətli və gözəl dağlar, təmiz dağ havası, qumsal çimərliklər, səfalı kəndlər, dadı damaqdan getməyən meyvə-tərəvəz, növbənöv çeşiddə təzə balıq və ət, isti təndir çörəyi və qonaqpərvər insanlar görür. Bütün bunlar Azərbaycana səfər etmək üçün adi səbəblərdir.

Beynəlxalq münasibətlər sahəsində tanınmış ekspert Arye Qut deyir: “Azərbaycan təhlükəsizlik nöqteyi-nəzərindən israillilər üçün qeyri-adi məkandır. Odlar Yurdunda özünüzü həqiqətən evinizdə hiss edirsiniz. Azərbaycan xalqı çox mehriban və qonaqpərvərdir. O, yəhudi xalqına və yəhudi dövlətinə böyük hörmətlə yanaşır.

Azərbaycanda maraqlı yerlər, landşaftlar olduqca çoxdur və bütün bunlar bu gözəl ölkəni gəzib-dolaşmaq üçün mühüm səbəblərdir. Amma düşünürəm ki, daha mühüm bir səbəb var, o da Azərbaycan xalqının İsrail xalqına mehriban, səmimi və qayğıkeş münasibətidir. Yəhudilər müasir Azərbaycanın ərazisində 2 min ildən çoxdur yaşayırlar. Azərbaycan Prezidenti İlham Əliyev dörd il ərzində iki yeni sinaqoq inşa etdirib. İsraillilər Azərbaycanda çox qəribə və unikal bir məkan da görə bilərlər. Bu, yəhudilərin məskunlaşdığı məşhur Qırmızı Qəsəbədir. Burada yığcam şəkildə təqribən 5 min dağ yəhudisi yaşayır. Ukrayna və Rusiya ilə müqayisədə Azərbaycan yəhudiləri antisemitizmin və talanların nə demək olduğunu heç vaxt bilməyiblər. Onlar Azərbaycan xalqından yalnız sevgi, hörmət və mehriban münasibət görüblər.

Bu gün İsraillə Azərbaycan arasında gözəl strateji münasibətlər mövcuddur. Hər iki ölkənin liderlərinin siyasi dialoqu çox yüksək səviyyədədir, ticari-iqtisadi dövriyyə ildə təqribən 5,5 milyard dollardır. Ən başlıcası bu ölkələrin insanları arasında əsl körpü yaranıb”.

Məqalə müəllifi qeyd edir ki, Azərbaycan özünü demokratik, parlamentli və dünyəvi respublika elan edən, qadınlara seçki hüququ verən ilk müsəlman ölkəsidir. O yazır: “1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyəti 23 ay fəaliyyət göstərib. Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini yenidən bərpa edib. SSRİ dağıldığı dövrdə Ermənistan və Azərbaycan arasında münaqişə yaranıb. Nəticədə Ermənistan Azərbaycan ərazilərinin 20 faizini, o cümlədən Dağlıq Qarabağı və ətraf 7 rayonu işğal edib. Amma bu hadisə Azərbaycanın multikultural modelinə əsla təsir göstərməyib. Azərbaycan xalqı nadir humanizmi, mehribanlığı və qonaqpərvərliyi ilə seçilir və siz bu möcüzələr ölkəsinə səfər etməklə, bütün deyilənləri sınaya və yoxlaya bilərsiniz”.

# "İtirilmiş milyonları tapaq"

*YAP Pirallahı rayon təşkilatında tədbir keçirilib*



Dünən Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının inzibati binasında YAP Pirallahı rayon təşkilatı qadınlar şurası və Qızıl Aypara Cəmiyyəti Pirallahı rayon bölməsinin birgə təşkilatçılığı ilə 28 iyul - Ümumdünya Hepatitlə Mübarizə Gününə həsr olunmuş " İtirilmiş milyonları tapaq" adı altında tədbir keçirilib. Tədbirdə Azərbaycan TB-Koalisiyası, "İnkişafa Doğru Qadın Təşəbbüsü" İctimai Birliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin QİÇS-lə Mübarizə Mərkəzinin nümayəndələri iştirak ediblər. Tədbiri giriş sözü ilə açan Qızıl Aypara Cəmiyyəti Pirallahı rayon bölməsinin sədri Təranə İskəndərova bildirib ki, Ümumdünya Səhiyyə Təşkilatı Hepatit viruslarının qarşısının alınması və onunla mübarizəyə kompleks yanaşmağa çağıraraq, hər 12 nəfərdən birinin xroniki yoluxması ilə epidemiyanın artma miqyasını, hər il dünyada bu xəstəliyə yoluxub, 130-170 milyon insan qaraciyər serrozu və qaraciyər xərçəngi kimi xəstəliklərə yaxalanma riski və bu xəstəliyin qarşısının alınması və müalicəsi sahəsindəki nailiyyətləri nəzərə alaraq, 2010-cu ildə WHA63.18 saylı Qərar qəbul edib və bu qərar hepatit viruslarının qarşısının alınmasına və onunla mübarizəyə kompleks yanaşmağa çağırıb və 28 iyul tarixini Beynəlxalq Hepatitlə Mübarizə Günü elan edilib.

Tədbirdə çıxış edən YAP Pirallahı rayon təşkilatı qadınlar şurasının sədri Kəmalə Mustafayeva keçirilən tədbirin önəmindən danışaraq, belə maarifləndirici tədbirlərin davamlı keçirilməsini, Azərbaycanda da bu infeksiyalarla bağlı vəziyyətin dünyada mövcud vəziyyətdən o qədər də fərqlənmədiyini bildirib. Səhiyyə Nazirliyinin 5 iyun 2014-cü il tarixli əmrinə əsasən, B və C viruslu hepatitlərin profilaktikası, diaqnostikası və müalicəsinin təşkili üzrə komissiya yaradılıb. Bu qurumun üzərinə ölkəmizdə bu infeksiyaların profilaktikası və diaqnostikası, həmçinin, belə xəstələrin müalicəsi üzrə görülən işlərin əlaqələndirilməsi, bu sahədə problemlərin həlli məqsədilə lazımi tədbirlərin görülməsi kimi vəzifələr qoyulub.

Tədbir daha sonra seminarla davam edib. AzQAC-ın "İcmaya əsaslanan sağlamlıq" proqramının rəhbəri Mətanət Qaraxanova, "İnkişafa Doğru Qadın Təşəbbüsü" İctimai Birliyinin rəhbəri Ziba Nəbiyeva, Səhiyyə Nazirliyi Respublika QİÇS-lə Mübarizə Mərkəzinin həkimi İsmayıl İsmayılzadə Ümumdünya Səhiyyə Təşkilatının "28 İyul -Ümumdünya Hepatit Günü" ilə əlaqədar hazırlanmış geniş məlumatları tədbir iştirakçılarının diqqətinə çatdırıblar. "İtirilmiş milyonları tapaq" şüarı altında keçirilən tədbirdə hepatitləri törədən viruslar (A, B, C, D və d.), xroniki hepatit xəstəliyinin qara ciyər serrozu, qara ciyərin xərçəngi və qara ciyər çatışmazlığı kimi vəziyyətlərlə nəticələnməsini, virus B cə C tək tibbi müayinə zamanı deyil, eləcə də, cinsi əlaqələr, eyni tibbi ləvazimatlardan istifadə və qan köçürmə zamanı yoluxmaq mümkünlüyü barədə təqdim edilən məlumatlar diqqətə çatdırılıb.

**Rövşən RƏSULOV**



# Azərbaycanda gənclər siyasəti uğurla həyata keçirilir

*Şəmkirdə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin yaranmasının 24-cü ildönümü qeyd olunub*

Dünən Şəmkirdə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin yaranmasının 24-cü ildönümü münasibətilə rayon gəncləri ilə görüş keçirilib.

Tədbiri giriş sözü ilə rayon gənclər və idman idarəsinin rəisi Emin İsmayılov açaraq, 1994-cü il iyul ayının 26-da Ulu Öndər Heydər Əliyevin ölkə gənclərini vahid təşkilat altında birləşdirmək məqsədilə Gənclər və İdman Nazirliyinin yaradılması haqqında Sərəncam imzaladığını, ölkə gənclərinin I və II Forumlarında iştirak edərək, proqram xarakterli çıxışlar etdiyini və daha sonra dövlət-gənclər siyasətinin həyata keçirilməsi məqsədilə Fərman imzaladığını iştirakçıların nəzərinə çatdırıb.

Görüşdə çıxış edən digər natiqlər də dövlətimizin prioritet sahələrin inkişafına hesablanan siyasi istiqamətlərindən biri olan gənclər siyasəti olduğunu vurğulayıb. Çıxışlarda o da qeyd olunub ki, Prezident İlham Əliyev tərəfindən 2005-ci ildə imzalanmış "Azərbaycan Gəncliyi 2005-2009-cu illərdə" və 2011-ci ildə imzalanmış "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" dövlət proqramları ölkə rəhbərinin Azərbaycan gəncliyinə münasibətinin birbaşa təzahürüdür.

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Alimpaşa Məmmədov Ulu Öndərin 26 iyul 1994-cü il tarixli Fərmanı ilə Gənclər, İdman və Turizm Nazirliyi yaradılmasının bu sahədə mühüm tədbirlərin həyata keçirilməsinə geniş imkan verdiyini vurğulayaraq bildirib ki, hər bir perspektivli Azərbaycan gəncinin yetişməsi üçün ölkəmizdə dövlət tərəfindən lazımi şərait yaradılmışdır. Burada elə təkcə son illər Prezident İlham Əliyevin birbaşa qərarları ilə yaradılan çoxsaylı gənclər mərkəzlərinin və evlərinin açılışını da qeyd etmək olar: "Bu gün Azərbaycan dövləti tam əmindir ki, onun güclü potensiala malik, intellektual imkanları və fiziki göstəriciləri yüksək olan gənclər ordusu vardır. Bu günün gəncləri həm də cəmiyyətin, dövlətin keşikçiləridir. Məhz bu səbəbdən, bir millətin mövcudluğu üçün sağlam gəncliyin olması vacib şərtdir. Çünki ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi Azərbaycan dövlətinin və gənclərimizin qarşısında duran əsas vəzifədir".

**R.HÜSEYNOVA**

# Türkiyənin nüfuzlu yayın şirkətlərindən olan "Ferfir" azərbaycanlı yazıçı Eyvaz Zeynalovun iki kitabını nəşr edib

Türkiyənin nüfuzlu yayın şirkətlərindən olan "Ferfir" tanınmış azərbaycanlı yazıçı Eyvaz Zeynalovun iki kitabını nəşr edib. Müəllifin "İntiqam" romanı və "Köhnə velosiped" hekayələr toplumu Ömər Küçükmehmetoğlunun tərcüməsində türkdilli oxucuların görüşünə gəlib. Hər iki kitabın ön söz müəllifi tərcüməçidir. Tərcümə etdiyi əsərlərin türkdilli oxucular tərəfindən böyük sevgi ilə qarşılanacağına əmin olduğunu ifadə edən Ömər Küçükmehmetoğlu müəllif barədə də ətraflı məlumat verir. O, diqqətə çatdırır ki, Eyvaz Zeynalov vətəninə, elinə və xalqına bağlılığını bütün yaradıcılığında tərənnüm etməyə müvəffəq olan bir nasirdir.




Özünəməxsus yaradıcılıq üslubu ilə daim oxucuların diqqətində olan Eyvaz Zeynalovun əsərlərinin Anadolu türkcəsinə tərcümə edilməsi təsadüfi deyil. Yazıçının yaradıcılığının ana xəttində real hadisələr dayanır. O, məhz həyat hekayələrini bədii əsərə çevirməklə oxucunu düşünməyə, pisdən uzaq olmağa, həyatda baş verənlərdən ibrət götürməyə sövq edir. Qeyd edək ki, İstanbulda fəaliyyət göstərən "Ferfir" yayınçılığının nəşrləri Türkiyənin əksər kitab mağazalarında satışa çıxarılır. Bundan başa, Türkiyənin böyük kitabxanaları "Ferfir"ə abunədir.

"Ferfir"in aylıq nəşri olan "Temrin" jurnalı Azərbaycan ədəbiyyatının tanınmasına, eləcə də, yazıçı və şairlərimizin türk dünyasında təbliğ edilməsinə böyük diqqət göstərir,

**SABİR ŞAHTAXTLI**

# Abituriyentlərin nəzərinə: UNEC-i tanı!



***UNEC-i abituriyentlərə daha yaxından tanıtmaq və ixtisas seçimində onlara dəstək olmaq üçün "UNEC-i tanı" layihəsinə start verilib. Bu məqsədlə ixtisas seçimi günlərində regionun ən böyük iqtisadyönümlü və 4 dildə təhsil verən universiteti olan UNEC-in qapıları abituriyentlərə açıq olacaq. Layihə çərçivəsində abituriyentlər UNEC-də tədris olunan ixtisaslar, fakültələr, keçid balları, təhsil haqları barədə ətraflı məlumat ala biləcəklər. Eyni zamanda onlara ixtisas seçimi, seçmək istədikləri ixtisasın üstünlükləri və gələcək karyera imkanları istiqamətində dəstək göstəriləcək.***

Abituriyentlər UNEC-in tələbələrinə yaratdığı imkanlar, xüsusi təqaüd, Avropanın nüfuzlu universitetləri ilə ikili diplom və UDİD proqramları barədə məlumatlandırılacaqlar. Həmçinin təhsil almaq istədikləri ixtisasın tədris olunduğu bina və auditoriyalarla tanış ola biləcəklər.

Azərbaycanın regionunda yaşayan və UNEC-ə gəlmək imkanı olmayan abituriyentlər isə onları maraqlandıran sualları UNEC-in rəsmi Facebook səhifəsinə ünvanlaya bilərlər. Eyni zamanda müraciətlərini öz facebook səhifələrindən #UNECdənsoruş haştagı ilə paylaşa bilərlər. Bunun üçün sualı paylaşdıqları post hamı üçün açıq olmalıdır. Qeyd edək ki, UNEC-ə I, II, IV və V ixtisas qruplarında 20 ixtisas üzrə tələbə qəbulu həyata keçirilir.

# Musiqi sərhəd tanımır...

*"Bizim dövlət siyasətimizdə tolerantlıq və humanizm prinsipləri hər şeydən öndə gəlir"*




Məlum olduğu kimi, iyulun 26-da Bakıda "Jara-2018" Festivalı başlayıb. Festivalın birinci günündə əvvəlcə Alekseyev, Emil Qədirov, Saşa Orlov, Elina Çaqa və Andrey Qrizli dueti, Natan, Sofi Kalçeva, Ruslan Sultan və başqalarının ifaları təqdim edilib. Azərbaycanın xalq artisti Emin Ağalarovun "Neveroyatnaya", "Azərbaycan" mahnılarını ifa etməsi, eləcə də, onun Stiven Siqalla birgə "Boogie man" ifası alqışlarla qarşılanıb. Tamaşaçılar bundan xoş anlar yaşayıb və zövq alıblar. Alessandro Safinanın Müslüm Maqomayevin repertuarından "Əbədi mavilik" mahnısını səsləndirməsi, Mariya Novikova ilə dueti tamaşaçıların alqışlarına səbəb olub. Sonra tanınmış ifaçılar Tomas Nevergreyen, İn Grid, habelə, MOZGİ qrupunun çıxışları olub. Estrada ulduzları ifalarından sonra festival haqqında təəssüratlarını bölüşüb, burada çıxış etməkdən məmnun qaldıqlarını bildiriblər. Çox maraqlıdır ki, bəzi öyrədilmiş şəxslər və müxaliflər "Jara" Musiqi Festivalında iştirak edib, Azərbaycan mahnısını ifa etməli olan Zaraya qarşı antitəbliğat kampaniyası aparıblar. Söhbət etdiyimiz müsahiblərimiz bu cür anti-təbliğat kampaniyasının Azərbaycanın dünyadakı imicinə kölgə salmaq məqsədi daşıdığını bildirdilər.

### "Həftə İçi" qəzetinin baş redaktoru Sevinc Seyidova: "Musiqi həm də bir təbliğatdır "

- Azərbaycan hər zaman tolerantlığı ilə dünyaya nümunə göstərilib. Əsrlərdir ki, ölkəmizdə müxtəlif xalqların nümayəndələri bir yerdə mehriban şəraitdə yaşayırlar. Dövlət olaraq biz heç bir xalqın sadə nümayəndəsinə qarşı hansısa addımlar atmırıq. Yalnız torpaqlarımızı işğal edən qüvvələrlə mübarizə aparırıq. Bu zamana qədər Rusiyanın bir neçə tanınmış müğənniləri rəsmi Bakının razılığı olmadan Dağlıq Qarabağa qanunsuz səfər ediblər. Dövlətimiz bu səfərlərin qarşısını almaq üçün onların adlarını qara siyahıya salıb və uzun müddət həmin sənət adamları Azərbaycana gəlmək imkanından məhrum olublar. Son anda Azərbaycan xalqından və dövlətindən üzr istədikdən sonra onların adları qara siyahıdan çıxarılıb. İndi həmin şəxslər rahat bir şəkildə Azərbaycana səfər edir və sevənləri qarşısında konsert proqramları ilə çıxış edirlər. Bu, bir daha göstərir ki, bizim dövlət siyasətimizdə tolerantlıq və humanizm prinsipləri hər şeydən öndə gəlir. Musiqi həm də bir təbliğatdır. Azərbaycanda "Jara" kimi musiqi proqramlarının təşkili ölkəmizin təbliği baxımından da mühüm əhəmiyyət daşıyır. Bakıda dəfələrlə müxtəlif idman tədbirləri və beynəlxalq festivallar keçirilib. Həmin yarışlarda erməni idmançıları da iştirak edib. Biz onların təhlükəsiz şəkildə yüzlərlə izləyici qarşısında çıxış etmələrinə tam imkan yaratmışıq. Bununla da, bütün dünyaya bizim əsas düşmənimizin, məhz Azərbaycan torpaqlarını işğal edən, uzun illərdir münaqişənin sülh yoluyla həllinə süni əngəllər yaradan Ermənistan hakimiyyəti olduğunu sübut etmişik. Bu baxımdan, müğənni Zaranın "Jara" Festivalında iştirakı məsələsinin süni şəkildə bu dərəcədə şişirdilməsi, bu olay ətrafında hansısa kampaniyaların aparılmasını doğru hesab etmirəm. Zaranın burada Azərbaycan mahnısını oxumasının özü də bir təbliğatdır.

### ADİİM-nin sədri, Avrasiya İnformasiya Agentliyinin ("avrasiya.net") baş redaktoru Cavid Şahverdiyev: "Zaraya qarşı qərəzli fikirlər söyləyənlər, yaxşı olardı ki, onunla görüşsünlər "

- Erməni müğənnisinin Azərbaycanda hansısa bir festivalda iştirak etməsinə qarşı çıxanlar düzgün mövqe nümayiş etdirmirlər. Ümumiyyətlə, belə bir mövqe nümayiş etdirmək, Azərbaycanda keçirilən hansısa beynəlxalq müsabiqəyə qatılan erməniyə qarşı müxtəlif vasitələrlə qərəzli firiklər söyləmək bizim millətə xas olmayan xüsusiyyətlərdəndir. Subyektiv fikrimdir, Azərbaycan bütün qapılarını ermənilərin üzünə açmalıdır. Onlar gəlib bizdəki inkişafı və gözəllikləri görməlidirlər. Onsuz da, xəbərləri var, amma öz gözləri ilə görsələr, daha yaxşı olardı. Adi bir erməni müğənnisinin Bakıya gəlişindən bu qədər əndişələnməyə heç bir səbəb yoxdur. Məgər Azərbaycandan xarici ölkələrə gedib ermənilərlə görüşən az adam var, sosial şəbəkələrdə ermənilərlə yazışan ziyalılar və jurnalistlərimiz də yetərincədir? İndi onları qınamalıyıq və yaxud da ən sərt cəzaya məhkum edilməsini tələb etməliyik? Məqsədimiz erməninin Bakıya gəlməsinin qarşısını almaq yox, ona Azərbaycan həqiqətlərini anlatmaq, ermənilərin işğalçılıq siyasətinin Ermənistan dövləti və xalqı üçün hansı fəsadlar törətdiyini çatdırmaqdır. Bunun üçün ona, onu beynəlxalq festivala dəvət edənə qarşı çıxmaq, mediada səs-küy yaratmaq lazım deyil. Ermənilər bundan sui-istifadə edə bilərlər, bəlkə də edirlər. Beynəlxalq təşkilatlara deyirlər ki, baxın, bir müğənnimizin Bakıya dəvət olunmasına qarşı çıxırlarsa, onda Qarabağda biz təhlükəsizliyimizə necə təminat ala bilərik? Zaraya və yaxud da Bakıya gələcək digər erməni idmançısı, ziyalısı və siyasətçisinə qarşı heç vaxt anti-təbliğat aparanlar bunun fərqində deyillər. Belə təbliğat aparmaq vətənpərvərlikdən irəli gəlmir, sadəcə şəxsi emosiyalarını saxlaya bilməyiblər. Onları da qınamıram, amma biz elə bir siyasət yürütməliyik ki, Bakıya gələn erməni öz ölkəsinə qayıdanda bizim inkişafdan, paytaxtımızın gözəlliyindən, ölkəmizin qüdrətindən və insanların firavan yaşamasından danışsın. Buna imkan və şərait yaratmalıyıq. Zaraya qarşı qərəzli fikirlər söyləyənlər, yaxşı olardı ki, onunla görüşsünlər. Azərbaycan həqiqətlərini, ermənilərin işğalçılıq siyasətini, düşdükləri bəlanı, Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin gücləndiyini, Qarabağın işğal altında qalmasının Ermənistana, erməni xalqına heç bir fayda gətirməyəcəyini anlatsınlar. Bunu edə bilmirlərsə, Qarabağ münaqişəsi, ermənilərin işğalçılıq siyasətindən bəhs edilən, heç olmasa, bir-iki kitab alıb hədiyyə etsinlər ona. Buna vətənpərvərlik deyə bilərəm, nəinki qərəzli fikirlər söyləməyə.

**GÜLYANƏ**

# Abituriyentləri repetitor yanına getməyə məcbur edən səbəblər -ARAŞDIRMA



Xəbər verildiyi kimi ötən gün Dövlət İmtahan Mərkəzi (DİM) 2018/2019-cu tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün II və III ixtisas qrupları üzrə qəbul imtahanı keçirib. Bununla da 2018/2019-cu tədris ili üçün ali məktəblərə qəbul imtahanları sona çatıb. Ümumi qəbul imtahanları zamanı apardığımız sorğunun nəticələrindən məlum olub ki, ali məktəbə qəbul olmaq üçün sənəd verən abituriyentlərin 90 faizindən çoxu repetitor yanında hazırlaşıb. Bəs görəsən ali məktəbə daxil olmaq üçün repetitor yanına getmək mütləqdirmi. Abituriyentləri repetitor yanına getməyə məcbur edən səbəblər nədən ibarətdir?

### "Müəllimlərin diaqnostik qiymətləndirməsi statistik rəqəmlərə təsirini göstərə bilmir"

Məsələ ilə bağlı SİA-ya açıqlama verən təhsil eksperti Etibar Əliyev bildirib ki, müəllimlərin bilikləri ilə bağlı Təhsil Nazirliyi tərəfindən son 5 ildə diaqnostik qiymətləndirilmə aparılsa da, görünür, bu istiqamətdə aparılan işlər statistik rəqəmlərə təsirini göstərə bilməyir.

Onun sözlərinə görə, bu, hamını düşündürməli, gələcəkdə müəllimlərin biliklərinin qiymətləndirilməsi, müəllim seçiminin imtahan vasitəsilə həyata keçirilməsi, yeni nəsil dərsliklərin yazılması ilə bağlı işlər həyata keçirilməlidir ki, yuxarıda sadalanan rəqəmlərin səviyyəsi aşağı düşsün: "Məktəblərdə davamiyyət yüksəldilməli, fənnini bilməyən müəllimlər kənarlaşdırılmalıdır. Müəllim hazırlayan ali təhsil məktəblərində təhsilin keyfiyyəti ciddi nəzarətə götürülməli, monitorinq aparılmalıdır".

### "Hər bir müəllim öz fənninin yüksək səviyyədə tədrisini məktəbdə həyata keçirməlidir"

Məktəb şagirdlərinin repetitorlara müraciət etməsinin əsas səbəbini məktəblərdə görən E.Əliyev söyləyib ki, məktəb müəllimi konkret olaraq öz fənninin yüksək səviyyədə tədrisini məktəbdə həyata keçirməlidir: "Birincisi repetitor təhsili uşaqları məktəbdən yayındırır, ikincisi əlavə böyük xərcdir ki, bu da valideynlərin büdcəsinə ziyandır, üçüncüsü isə müəllimlər məktəb tədrisinə könülsüz yanaşırlar. Bir çox ölkələrdə bunun qarşısı məktəbdə əlavə dərslərin çox az ödənişlə həyata keçirilməsi ilə alınır. Elə ölkələr var ki, şagirdlər gününün 8-10 saatını məktəbdə keçirirlər ki, proqramları mənimsənilsin. Repetitorlar proqramın mənimsənilməsində heç bir rol oynamırlar. Sadəcə uşaqları test tapşırıqlarına uyğunlaşdırıb, ötən illərdəki nəticələrlə müqayisələr əsasında hazırlıq keçirlər.

"Əgər məktəb proqramı yüksək səviyyədə şagirdə mənimsədə bilsə, o zaman repetitora ehtiyac qalmaz"

Ekspet qeyd edib ki, rəsmi statistikaya əsasən, məzunlar məktəb proqramını 48-70%-ni mənimsəmirlər: "Proqramın mənimsənilməsini məhz məktəb həyata keçirməlidir: "Qəbul imtahanlarında aşağı nəticənin göstərilməsi elə bununla bağlıdır. Əgər məktəb proqramı yüksək səviyyədə şagirdə mənimsədə bilsə, o zaman imtahanlarda yüksək nəticə əldə etmək mümkündür. Bu da orta məktəb müəllimlərinin vəzifə borcuna daxildir. Bu gün müəllimlərdən keyfiyyətli dərs tələb olunmalıdır. Burada məktəb idarəçiliyi də təkmilləşməlidir. Əgər məktəblərdə bütün hallarda davamiyyətin 100 faiz həyata keçirilməsi ilə bağlı qarşıya məqsəd qoyulsa, o zaman məktəblilər çox az hallarda repetitora müraciət edə bilərlər".

E.Əliyev əlavə edib ki, əgər məktəbin şagirdə verdiyi təhsil sənədi kamal attestatıdırsa, o zaman mütləq şəkildə hər bir şagird yazmağı, oxumağı, hesablamağı, öz fikirlərini bildirməyi bacarmalıdır: "Məktəb cəmiyyətə belə məzunlar verməlidir. Bu baxımdan məktəb idarəetməsində, məktəbdə təhsilin keyfiyyətinin yaxşılaşdırılmasında, dərsliklərin yenidən yazılması istiqamətində ciddi işlər görülməlidir".

### "Məktəblər şagirdləri elə hazırlamalıdır ki, onların əlavə kurslara ehtiyacı olmasın"

Təhsil-eksperti Əjdər Ağayev isə deyib ki, diaqnostik qiymətləndirmə müəllimlərin inkişafına müsbət təsir göstərsə də, onların peşəkarlığına təsir etmir: "Çünki, peşəkarlıq sistemli yanaşma tələb edir. Peşəkarlığın sosioloji, psixoloji, metodiki, pedaqoji, iqtisadi, mənəvi tərəfləri var. Amma diaqnostik imtahanda əsas məqsəd qiymətləndirmədən keçən müəllimlərin maaşının artırılmasıdır. Müəllimlərin maaşının artması onların sosial vəziyyəti yaxşılaşır, eyni zamanda da ona olan etibara inama görə öz işini səmərəli qurmağa çalışır.

Ekspertin sözlərinə görə, məktəblər şagirdləri proqramlar, pedaqoji tələblər üzrə elə hazırlamalıdır ki, onların əlavə kurslara ehtiyacı olmasın: "Əgər şagird məktəbdən kənarda kömək axtarırsa, demək həmin məktəbin səviyyəsi aşağıdır. Biz ilk növbədə belə ümumtəhsil məktəblərin təlim-tədris səviyyəsini qaldırmalıyıq. Təhsillə bağlı kurslar şagirdlərin dərsə olan davamiyyətinə də mənfi təsir göstərir. Bu gün 9-10-11-ci siniflərdə təhsil alan şagirdlər əlavə hazırlıq kurslarına getdikləri üçün dərsdən yayınırlar. Müəyyən məktəblər var ki, orada yuxarı siniflərdə 30 uşaq təhsil alır, amma cəmi 5 nəfəri dərsə davamiyyətlidir. Şagirdlərin əlavə kurslara getməsi, bizdə bir növ dəb halını alıb. Əgər biri kursa gedirsə, o birinin də valideyni uşağını kursa meyllendirir. Belə hallar məktəbin səviyyəsini daha da endirir. Çox təəssüf ki, bizdə fəaliyyət göstərən bəzi məktəblərin direktorları belə hallardan qazanc əldə edirlər. Belə ki, onlar həmin şagirdlərdən pul almaqla, dərsdən yayınma hallarına göz yumurlar. Bütün bunlar təhsilin, təlimin keyfiyyətinə, uşaqların vətəndaş kimi formalaşmasına ziyan vurur. Yalnız məktəbi bitirən abituriyentlər müstəqil şəkildə repetitor, eləcə də müxtəlif kurslara gedə bilər. Lakin məktəblilər məktəb özü hazırlamalıdır".

### "Dövlət məktəblərində təmənnasız məşğələlər keçirilməlidir"

Ə.Ağayev əlavə edib ki, Azərbaycan təhsilinin zəngin təcrübəsi var: "Məktəblərin tələblərindən biri odur ki, təhsil səviyyəsi zəif olan uşaqlar dərsdən sonra saxlanmalı, onlara dövlət məktəblərində təmənnasız məşğələlər keçirilməlidir. Amma bu gün ən yaxşı məktəblərdə saat 13:30-a qədər dərs, saat 16:00-dan 20:00-dək pullu məşğələlər keçirilir. Bu uşaqların həddindən artıq yüklənməsinə və nəticə etibarı ilə zəifləməsinə gətirib çıxarır. Dövlət məktəbindən repetitor binası kimi istifadə etmək olmaz ".

**Nailə Məhərrəmova**

# Koçaryanın həbsi mümkünlüyündən doğan təhdid

## *Yaxud "məni Azərbaycana hədiyyə edin" qorxusu*

***Ermənistanın keçmiş prezidenti, 2008-ci il 1 mart hadisələrinin istintaqı çərçivəsində konstitusion quruluşu devirmək cəhdi ittihamı ilə bağlı dindirilən Robert Koçaryan, nədənsə, bundan sonra istintaqa heç bir ifadə verməyəcəyini bildirib. Bu arada, əli erməni xalqı ilə yanaşı, azərbaycanlıların da qanına bulaşan Koçaryan istintaqda dindirildikdən sonra, "Yerkir media" telekanalına müsahibə verib və barəsində irəli sürülən ittihamları "saxta, qurama" adlandırıb, istintaqa cəlb edilməsini "siyasi təqib" adlandırıb. Artıq Koçaryan barəsində qətimkan tədbirinin seçilməsi üçün məhkəməyə müraciət olunub və onun həbsi daha real görünür.***

### Erməni eks-prezidentinin iddiaları

O, iddia edib ki, hələ Dağlıq Qarabağın "birinci prezidenti" olarkən, cəbhə xəttində təhlükəsizlik zolağı yaradıb və Ermənistanın ikinci prezidenti "seçildikdən" sonra ölkə iqtisadiyyatı 5 faiz artıb. Koçaryan, əsasən, Azərbaycan ərazilərinin işğalındakı rolunu daha çox qabardıb və həbsinin yolverilməz olduğunu deyib.

R.Koçaryan hazırkı Ermənistan hökumətinə istehza edərək, əslində, daxilindəki həbs qorxusunu da gizlədə bilməyib. SİTAT: "İttihamlar quramadır. Azərbaycanda hansı təntənə, sevinc hiss etdiklərini təsəvvür edə bilərəm. Onlara belə hədiyyə edin".

### Koçaryandan Paşinyan hökumətinə: "Bu, dövlətçiliyin təməlinə qoyulan bombadır"

Digər maraqlı məqam isə budur ki, ona qarşı irəli sürülmüş ittihamları qurama və siyasiləşdirilmiş adlandıran Koçaryan baş verənləri ölkə üçün təhlükə anı hesab etdiyini də gizlətməyib. Artıq bir sıra erməni ekspertləri onun bu fikirlərini təhdid və hədə kimi də qiymətləndirib. Belə ki, Koçaryan sözügedən müsahibəsində bildirib ki, ona qarşı irəli sürülən ittihamlar, eyni zamanda, orduya qarşıdır: "Bu, ölkə üçün təhlükəli andır. Bu, dövlətçiliyin



təməlinə qoyulan bombadır. Konstitusiya məhkəməsinin qərara yenidən baxması elə bir bombadır ki, mütləq partlayacaq. Başqa cür ola da bilməz. Qanunvericilik sistemi böyük təhlükədədir".

Koçaryan Nikol Paşinyan hökumətinə barmaq silkələyərək, təhdidini davam etdirib və sual ünvanlayıb: "Mövcud hakimiyyət əbədi deyil və hər yeni hakimiyyət, öz növbəsində, bu işə yenidən baxacaq. Eyni zamanda, ordu da ittiham olunur. Ölkə müharibə şəraitindədir, siz nə edirsiniz? Ordunun bu qədər alçaldılması hansı nəticələrə gətirib çıxaracaq? Məgər Qarabağ məsələsi həll olunub və sərhədlərdə sakitçilikdir?"

"Hesab edirəm ki, əgər bu hadisəni (1 mart olayları-R.N.) ordu törədibsə, mən də ali baş komandanamsa və baş verənləri ordunun yardımı ilə etmişəm, belə çıxır ki, bütün ordu cinayətkar elan edilir"-deyə Koçaryan bildirib.

Koçaryan deyib ki, təslim olmaq fikrində deyil və axıra qədər mübarizə aparacaq. "Kütlələrin əhval-ruhiyyəsini hüquqi məkana daşımaq istəyirlər. Belə çıxır ki, 2008-ci ildə cəmi 21,5 faiz səs yığan Levon Ter-Petrosyan, əslində, həmin seçkiləri udubmuş. Bu, reallıqdan tamamilə uzaqdır və sevgi ilə həmrəyik şüarları altında baş tutmuş "məxməri inqilab" tərəfindən siyasi təqiblərdir"-o bildirib.

Qeyd edək ki, Nikol Paşinyan tərəfindən devrilmiş Serj Sarkisyanın tərəfdarları Koçaryanın müdafiəsinə qalxmağa başlayıblar. Onlar küçədən gələn "demokratiyanı" sərt şəkildə tənqid edir və Paşinyanı siyasi təqiblərdə günahlandırırlar. Bu arada Ermənistan parlamentinin xarici əlaqələr komissiyasının sədri, Respublika Partiyasının sədr müavini Armen Aşotyan "Facebook" səhifəsində Robert Koçaryanı müdafiə edən status paylaşıb. Belə ki, o, Ermənistanın ikinci prezidentinə qarşı irəli sürülmüş məlum ittihamları "siyasi terror" adlandırıb.

"Yox, bu vendetta deyil, bu, əsl vakxanaliya və siyasi terrordur"-deyə Aşotyan yazıb.

Beləliklə, istintaqa cəlb olunan və barəsində mümkün həbs qərarı veriləcək Ermənistanın ikinci prezidenti Robert Koçaryan bir tərəfdən qorxur, digər tərəfdən isə, təhdid edir. Onu müdafiə edənlər isə, nə qədər maraqlı görünsə də, məhz Serj Sarkisyanın tərəfdarlarıdır. Çünki 1 mart hadisələrində Serj Sarkisyanın da az-çox payının olması kimsəyə sirr deyil. Digər tərəfdən, xüsusilə, 1 mart qanlı hadisələrində ordudan istifadə edən erməni eks-prezident siyasi şantaja da yol verərək, həbs ediləcəyi zaman, ordunun da cinayətkar hesab ediləcəyini deyib. Bu amil isə Ermənistanda yeni narazılıqlara və qarşıdurmalara səbəb ola bilər. Hər halda, mövcud məsələ də, məhz bu istiqamətdə inkişaf etməkdədir.

***Rövşən NURƏDDİNOĞLU***



**Təhmasib Novruzov**

## *Cılız düşünənlərin mübarizəsi də cılız olur*

***Bizim özümüzə məxsus mental dəyərlərimiz çoxdur. Bu dəyərlərin əksəriyyəti də el misallarında, atalar sözlərində bu və digər formada yaddaşlara hopub. Belə qiymətli kəlamlardan birini xatırlatmaq istərdim: "Odu söndürüb, külü ilə oynayırıq". Digər minlərlə kəlamlar kimi, bu deyim də bizim cılız düşünən həmvətənlərimizin yanlışlığına yönələn bir misaldır. Alovunun istisindən qaçaraq, sönmüş odun külünü eşələmək və orda qızınmaq üçün istilik axtarmaq, nə yazıqlar ki, təbiətimizdə var.***

Yadımdadı, 1988-ci ildə haylar "miatsum" (yəni birləşmə) hərəkatına başladığı ilk dövrlərdə Bakıda böyüyüb, boya-başa çatmış, Azərbaycanın çörəyi ilə böyümüş, bu yurdun havasını udmuş və ən başlıcası, Ulu Öndər Heydər Əliyevin dəstəyi sayəsində şahmat üzrə dünya çempionu olmuş, yarı yəhudi, yarı erməni əsilli Qari Kasparov. Hələ şahmat tacı uğrunda gedən yarış zamanı ermənilərin iddiası ilə bağlı jurnalistin sualını cavablandırarkən, siyasətə qarışmadığını, ancaq Bakıda doğulub-böyüdüyünü və bu şəhərə bağlı olduğunu bildirmişdi. Yəni miyanə bir cavab vermişdi. Şahmat tacını alıb Bakıya dönərkən, kimlər olduğunu bu gün də bilmədiyimiz (bəlkə də hansısa erməni qruplaşmasının təşkilatçılığı idi) aeroportdan onu təhqiramiz sözlərlə geri qaytardılar. Bakıdan birbaşa Moskvaya qayıdan Qari, bundan sonra oldu ermənilərin havadarlarından biri və başladı "miatsum" ideyasını dəstəkləməyə. Təsəvvür edin, dünya şahmat tacının sahibi bizi yox, erməniləri dəstəklədi və bu dəstəyin Azərbaycan xalqının haqlı mübarizəsinə nə qədər zərbə vurduğunu izah etməyə ehtiyac görmürəm. Əminəm ki, bu yazım birmənalı qarşılanmayacaq. Fəqət, qarşımızdakı düşmənin ələ düşən ən xırda fürsətlərdən də öz xeyrinə necə yararlandığının dəfələrlə şahidi olmuş, Qarabağ hadisələri başladığı ilk gündən bu çirkin iddiaya qarşı ölkəmizdə başlayan ümumxalq mübarizəsinin ən ön sıralarında çarpışmış biri olaraq, indiki məqamda düşündüklərimi demək zorundayam.

# Mərkəz sədri: "Tonoyan yeni müharibəyə hazırlaşır"

"Ermənistanın müdafiə naziri D.Tonoyan EA-Daily.com saytına verdiyi müsahibədə Azərbaycana qarşı yeni müharibəyə hazırlaşdığını açıq şəkildə bəyan etdi. Müsahibənin təhlilindən də müharibəyə hazırlıq nəticəsi alınır. Eləcə də müsahibədən D.Tonoyanın intellektsiz olmadığı da başa düşülür. İlk qənaətimiz D.Tonoyanın hansısa sekta üzvü olmasından ibarətdir. Bəlkə də müharibədə dostlarını, tabeliyindəkiləri, dövləti və özünü öldürmək mahiyyətli bu sektanın başçısı elə D.Tonoyan özüdür". Bunu SİA-ya açıqlamasında Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu deyib.

Onun sözlərinə görə, D.Tonoyan Ermənistanın müdafiə nazirinin müavini olaraq 2016-ci ilin fevralında "Statik müdafiədən aktiv cilovlamaya" konsepsiyasının hazırlanmasının və müzakirəsini başa çatdırdı: "NATO, ATƏT onun bu konsepsiyanın aktiv müzakirə



olunduğu məkanlar idi. Ermənistanda isə müzakirənin iştirakçıları tanınmış ziyalılar idi. "Statik müdafiədən aktiv cilovlanmaya" konsepsiyasının məzmununu bir daha təkrarlayırıq: D.Tonoyanın fikrincə, Azərbaycan böyük və qüdrətli dövlətdir, ordusu güclüdür. Qoşunların təmas xəttində erməni ordusunun verdiyi itkilərin sayı artıb. Bu, erməni xalqını ruhdan salır, Azərbaycanın gücü xof yaradır. Bunun qarşısını almaq üçün Ermənistan ordusunun xırda çevik qüvvələri qəfil hücumlarla Azərbaycan ordusuna zərbələr endirir, erməni xalqının orduya inamı artır. D.Tonoyan məhz bu niyyətlə də 2016-cı ilin aprelində təxribata başladı. Amma Azərbaycan ordusu qat-qat güclü cavab verdi.

D.Tonoyan hətta aprel döyüşlərinin yekunlarının analitikası ilə də tanış olmaq istəmir. Bəlkə də xəcalətindəndir, amma sofistik mühakimə irəli sürür: Hərb tarixində çoxlu sərkərdələr məhz keçmiş müharibənin təhlili əsasında hücuma keçdikləri üçün məğlub olublar. D.Tonoyanın məhz bu fikri bizdə onun intellektuallığının xəstəliyinə şübhə yaratdı və ilk ağlımıza gələn sektantlıq oldu.

D.Tonoyan erməni xalqını aldatmaq üçün yeni anlayışlardan, terminlərdən istifadə edir. Amma bilmir ki, hətta erməni obıvateli kimlərdənsə soruşa-soruşa öyrənəcək ki, Ermənistan Müdafiə Nazirliyi "Miq CM-30" qırıcı təyyarəsini RF-dən ala bilməyəcək. Ya RF satmayacaq, çünki Ermənistan Müdafiə Nazirliyi artıq bir dəfə bu qırıcı təyyarənin alınması ilə bağlı müqaviləni geri çağırıb. Ya da Ermənistanın pulu satmayacaq. Amma öz xalqını inandırmağa çalışır ki, Ermənistan Azərbaycandan güclüdür. 2016-cı ilin aprel döyüşlərinin bir nəticəsini D.Tonoyanın yadına salmaq istəyirik. Əgər RF Ermənistan və Azərbaycan müdafiə nazirləri müavinlərinin görüşü məsələsini aktiv şəkildə gündəliyə gətirməsəydi, Xankəndi (Stepanakert) artıq boşalmışdı. Xankəndində (Stepanakert) dövlət binalarına qumbara ilə atəş açıldığı barədə məlumatlar yayılırdı.

D.Tonoyan kimə xidmət etdiyi yalnız özünə bəllidir. Erməni xalqının maraqlarına xidmət etmədiyi aydındır. Çünki 2016-cı ilin aprel döyüşləri zamanı:

I. Ermənistan dövləti daxilən monolit idi,

II. Ermənistanın iqtisadiyyatı nisbi güclü görünürdü,

III. Ermənistan ordusunun problemləri erməni xalqına bəlli deyildi.

IV. RF-in regional təhlükəsizlik maraqlarının böyük bir qismi Ermənistan üzərində qurulmuşdu.

İndi Ermənistanda milli birlikdən danışmağın yeri yoxdur. İqtisadiyyat bərbad gündədir. Erməni ordusunun problemləri gülməli vəziyyət yaradıb. Azərbaycana qorxu gələn ordunun rəhbəri hərbçilərini alt paltar və geyimlə təmin edə bilmir. Baş nazirin bu mövzuda verdiyi göstərişlər icra olunmur.

Rusiya ilə Ermənistan arasında təhlükəsizlik mövzusunda heç bir müttəfiqlikdən söhbət gedə bilməz. Bunun bir qismi D.Tonoyana aiddir. Bu vaxtadək RF müdafiə naziri onu qəbul etməyib.

D.Tonoyanın şəxsiyyəti ətrafında baş verən digər hadisələr də erməni ordusunun imici və gücünü artırmır, əksinə azaldır. Bir müddət öncə Fövqəladə Hallar Naziri idi. İndi aparılan yoxlamalar onun dövründə Fövqəladə Hallar Nazirliyində korrupsiya hallarını aşkarlayıb. Müdafiə nazirliyində generalların korrupsiya əməlləri barədə erməni mətbuatı hər gün nəsə yazır. Ermənistan özü və ordusu indikinə nisbətən xeyli güclü göründüyü halda D.Tonoyan məğlub oldu. Son məğlubiyyətdən Ermənistanı RF xilas etdi. Bu dəfə Ermənistan rüsvayçı şəkildə məğlub olacaq və RF ona saman çöpü də uzatmayacaq. Bəlkə D.Tonoyan ruhi xəstədir. Amma sektantlıqla ruhi xəstəlik arasında elə də böyük fərq yoxdur".

***Ceyhun Rasimoğlu***

# Zara kimlərdən qeyrətli çıxdı?

## *"Jara" Mahnı Festivalı bir çoxlarının maskalarının növbəti dəfə cırılmasına səbəb oldu*

Bir sıra siyasi dəllalların "Jara" Beynəlxalq Mahnı Festivalı ətrafında səs-küy yaratmaq cəhdləri, ilk növbədə, Azərbaycanı istəməyən bəlli qüvvələrin sifarişi kimi qiymətləndirilməlidir. Daha dəqiq desək, sosial şəbəkələrdə bu istiqamətdə canfəşanlıq göstərən AXCP sədri Əli Kərimlinin, "Milli Şura" sədri Cəmil Həsənlinin daim ermənilərin, eləcə də, radikal dindarların siyasi maraqlarına xidmət göstərən "Nur-az.com" səhifəsi ilə eyni mövqedən çıxış etmələri, artıq bu məsələni açıq-aşkar üzə çıxarmış olur. O cümlədən, Avropada özlərini "siyasi dissidend" elan edib, bu ad altında dövlətimiz əleyhinə çıxış edənlərin guya "milli təəssübkeşlik" istiqamətində siyasi oyunbazlıqlar nümayiş etdirmələri belə qənaətə gəlməyə zəmin yaradır ki, əsas hədəf heç də anası erməni, atası isə yezidi kürdü olan müğənni Zara Mqoyan deyil, əsas hədəf Azərbaycan dövlətidir.

### Ətəklər başlara çəkilib və hər kəs olub "milli təəssübkeş"

Ortaya çıxan digər bir məqam budur ki, daim ermənilərlə iş birliyində olan və radikal dindarları təmsil edən "Nur-az.com" nəyə görə birdən-birə anti-erməni xarakterli çıxışlar etməyə başladı? Məlumdur ki, İranın xüsusi xidmət orqanlarının dəstəyi ilə sosial şəbəkədə fəaliyyət göstərən adıçəkilən səhifə heç vaxt erməniləri pisləyən çıxışlar etməyib. Misal üçün, işğal altında olan Dağlıq Qarabağ ərazilərimizdə fəaliyyət göstərən İran şirkətlərini tənqid etməyib, həmin ərazilərə maşın-maşın tikinti materiallarının daşınmasını və s. biznes məsələlərini pisləyən fikirləri bölüşməyib. Ancaq Z.Mqoyanın "Jara" Beynəlxalq Mahnı Festivalındakı iştirakı bəlli olar-olmaz, necə deyərlər, ətəklər başlara çəkilib və hər kəs olub "milli təəssübkeş" (?!-R.R.) Halbuki Z.Mqoyan hələ Azərbaycana gəlməmiş bəyan etmişdi ki, o, bu ölkəni sevir və mədəniyyətinə, tolerantlığına və multikultural dəyərlərinə dərin rəğbət bəsləyir. Bu da son deyil...

Əsas məsələ həm də ondadır ki, Ermənistanda doğulmasına baxmayaraq, Rusiya vətəndaşı olan müğənni Zara Dağlıq Qarabağ problemi barədə danışarkən, Ermənistanın işğalçılıq siyasəti apardığını, bu və ya digər şəkildə pisləyib, üstəlik, Xocalıda baş vermiş qanlı cinayət hadisəsini soyqırımı kimi qiymətləndirdiyini deyib. Hələ bu da son deyil! Z.Mqoyan "Jara"da



Azərbaycan dilində mahnı səsləndirəcəyini də vurğulayıb. İndi belə bir sual yaranır: əgər Ə.Kərimli, C.Həsənli, "Azadlıq" qəzetinin sosial şəbəkədəki səhifəsi, AXCP-nin və bu partiyanın gənclər komitəsinin səhifələri, "Turan" TV, "Nur-az.com", Azad söz və s. səhifələr niyə bu məsələni deyil, məhz Z.Mqoyanın erməni olması ətrafında özlərini ülgücləyirlər?! Onlar sevinmirlərmi ki, bir Ermənistanda doğulmuş yezdi kürdü möhtəşəm beynəlxalq mədəniyyət tədbirində - "Jara" Festivalında Azərbaycan dövlətinin, Azərbaycan xaqlının istər birbaşa, istərsə də dolayısı yollarla dövlətçilik maraqlarından çıxış edəcək, bununla da, bütün dünya görəcək ki, erməni əsilli mədəniyyət xadimi, doğulduğu Ermənistanı deyil, Azərbaycanı daha çox sevir və rəğbət bəsləyir?

Əslində, "Jara"ya qarşı çıxanlar bütün bunları bilirlər, özü də çox yaxşı bilirlər, sadəcə, erməni əsilli yezidi kürdünün Azərbaycanın maraqlarından çıxış etməsi, onların ağalarının - erməni lobbisinə tərs şillə kimi dəyib və bu şillənin təsirini azaltmaq üçün, dönüb olublar "milli təəssübkeş". Bu, həqiqətən də, çox təəssüfedici və hiddətləndirici haldır ki, bir düşmən, təcavüzkar, işğalçı dövlətdə doğulub boya-başa çatan Ermənistan əsilli müğənninin Azərbaycan dövlətinin maraqlarını dəstəkləməsinə qarşı bu qədər aqressiv olasan. Hətta ermənilər belə aqressiya ilə çıxış etmirlər, nəinki yuxarıda adları çəkilən "milli təəssübkeşləri-miz"!

Beləliklə, bu məsələnin əsas mahiyyəti məlumdur. Bununla isə, bir daha sübut olundu ki, erməni lobbisinə işləyənlər heç vaxt dövlətimizin maraqlarına xidmət etməzlər. Ən əsası isə, "erməni" deyib söyüş və təhqirlər ünvanladıqları Zara Mqoyan onlardan qeyrətli çıxdı!

**Rövşən RƏSULOV**

# Sübuta yetirilən faktlar

## *Əli Kərimli: xəyanət, qisaslar və intriqalar toplusu*



***25 ildir ki, AXCP sədri Əli Kərimli müxalifətçi partiya sədri adı altında maskalanmaqda dövlətimizin strateji hədəflərinin sabotaj olunması, dövlətimizin beynəlxalq aləmdə qazandığı yüksək nüfuzuna xələl gətirməyə çalışıb. Kifayət qədər faktlar da sübut edir ki, Ə.Kərimlinin fəaliyyəti və irəli sürdüyü iddialar ermənilərin Azərbaycana qarşı həyata keçirdiyi informasiya müharibəsinin başlıca istiqamətləri ilə tam şəkildə üst-üstə düşür.***

Aman-zaman, xarici ölkələrdəki ağalarına xidmət göstərən, təlimatlar alıb dövlət maraqlarına qarşı çirkin xəyanətkar fəaliyyət yolu tutan AXCP sədri Ə.Kərimli öz çirkin əməllərini müxtəlif sferalarda nümayiş etdirməyə həmişə cəhd göstərib. Bu, o Ə.Kərimlidir ki, hakimiyyətə hansı yolla olursa-olsun, yiyələnməsi üçün, hətta şeytanla belə əməkdaşlığa gedir. Elə bu yolun yolçusu olan Fransada yaşayan əmisi oğlu İnqilab Kərimovun da terrorçu şəbəkənin hərəkətlərinə haqq qazandıran bəyanatla çıxış etməsi qaniçən qruplaşmanı ölkəmizə dəvət etməsi, Kərimli xislətini təsdiqləyən faktor deyilmi?

Nardaranda baş verən hadisələr zamanı Ə.Kərimli sosial şəbəkədə insanları "qiyama" səsləyib, bununla, ölkədə vətəndaş qarşıdurması yaratmağa cəhdlər göstərməsi fakt deyilmi? İyrənc məqsədinə çatmaq üçün simasını itirmiş, milli mənafeləri düşünməyən, hər cür alçaqlığa qol qoyan AXCP sədri hər zaman istənilən qaranlıq dairələrlə müttəfiqliyə hazır olan anti-milli qüvvəyə çevrildiyini nümayiş etdirib.

### Əli Kərimli öz şəxsi mənafeyi naminə erməniyə "dayı" deməyə hazırdır

Bunu Ə.Kərimlinin öz qohumu, "Azərbaycan fermeri" qəzetinin baş redaktoru Nuhəli Kərimov deyir. N.Kərimov Ə.Kərimli kimi yaltaq, öz xalqını pula, vara-dövlətə satmağa hər an hazır olan antimilli ünsür olduğunu bildirib. Çünki onların "Vətən xaini" adı almaq qorxusu yoxdur. Ə.Kərimlinin apardığı antimilli siyasəti Azərbaycan xalqına qarşı düşmənçilik siyasəti kimi qiymətləndirirəm. Bu insan, öz şəxsi mənafeyi naminə erməniyə "dayı" deməyə hazırdır. Yetər ki, məqsədlərini həyata keçirə bilsin. Bu antimilli ünsür qrant şəklində aldığı çirkli pullar hesabına şəxsi maraqlarını reallaşdırır, müxtəlif insanların adına obyektlər əldə edir. Yüksək məbləğdə qrantları mənimsəmək üçün isə bacardığı qədər ermənipərəst qüvvələrlə əlaqə yaradır.

### "Ayının min oyunu bir armudun başındadır"

25 ildən artıqdır ki, dağıdıcı muxalifət düşərgəsini bədxah niyyətləri ilə "şumon" edən, kif atmış passiv təfəkkürü ilə hamının boğazında kal armud kimi qalan Ə.Kərimli arxada qalan illərdə ancaq xarici dairələrə xidmət göstərmiş, xəyanətləri üzrə liderlik qazanmışdır. Və bu şəxsin tərcümeyi-halının xəyanətdən ibarət olduğunu aydın görürük. Çünki o səriştəsiz, radikal islamçılarla, erməni havadarları ilə əlaqələrini genişləndirən xəyanətkardır. Leyla və Arif Yunusları, özü kimi xəyanətkar, jurnalist adına ləkə olan Xədicə İsmayılı dəstəkləməklə xarici havadarlarının "Azərbaycanda insan haqları pozulur" havasına oynayan, təxribatlara rəvac verən Ə.Kərimlinin həyatı yalan və mənsəb üzərində formalaşıb.

Müdriklərin söylədiyi "Ustadına kəc baxanın gözlərinə qan damar" sözləri belə Ə.Kərimlinin əməlində özünü göstərdi. Sələfi hesab etdiyi Əbülfəz Elçibəyi zəhərləməklə özü üçün rəhbərlik şansı yaradan Ə.Kərimli bu əməlindən də utanıb xəcalət çəkmədi. Azərbaycan xalqı çox yaxşı bilir ki, bu gün özünü müxalifət adlandıranlar, Ə.Kərimlinin "beşinci kolon"u xaricdən idarə olunur. Anti-Azərbaycan dairələr tərəfindən verilən komandalar nəticəsində bu qüvvələr fəallaşır və uğursuz mitinqlər başlanır. Onların aksiyalarına gələnlərin sayı az olduqda isə xəcalət çəkmədən bunun ölkədə söz və vicdan azadlığının olmaması ilə əlaqələndirirlər. Azərbaycan xalqı və beynəlxalq təşkilatlar da bilir ki, sərbəst toplaşmaq azadlığı, siyasi partiyalar haqqında qanunların qəbul olunduğu Azərbaycanda bütün azadlıqlar mövcuddur. Satqınlıqları ilə dövlətçiliyimizə zərər vuran əli kərimlilərə qarşı barışmaz olan xalq belə xəyanətkar ünsürləri tarixin səhifələrindən çoxdan silib və Azərbaycanın siyasi səhnəsində, artıq onlar üçün yer yoxdur.

**Rəfiqə HÜSEYNOVA**

# "Nar" 2018-ci ilin ikinci rübünün nəticələrini açıq-

"Azerfon" MMC ("Nar" ticarət nişanı) cari ilin ikinci rübünün nəticələrini açıqlayıb. Nəticələrə əsasən, bu dövr ərzində şirkət ilk rübdə qeydə alınan yüksək artım dinamikasını ikinci rübdə də davam etdirib.

Şəbəkə infrastrukturunun genişləndirilməsinə xüsusi önəm verən "Nar" ölkə ərazisində 74 3G və 161 4G baza stansiyası quraraq və abunəçilərin istifadəsinə verib. Cari ilin ikinci rübü ərzində "Nar" öz abunəçilərinə 5 yeni xidmət ("Exchange", Pulsuz "WhatsApp", Turbo düymə, Full paketi üçün Rominq dəqiqələri və Əlavə dəqiqələr xidməti) təqdim edib, həmçinin 3 kampaniya (Respublika günü, Ramazan və Həftəsonu kampaniyası) keçirib. Nəticədə, mobil operatorun abunəçi bazası ötən ilin eyni rübü ilə müqayisədə 6% artıb. Hazırda "Nar" abunəçilərinin sayı 2,1 milyonu keçmişdir.

"Azerfon" MMC-nin Baş İcraçı



Direktoru Qunnar Panke ikinci rübün nəticələrini belə şərh edib: "İkinci rübdə göstərdiyimiz inkişaf dinamikasından çox razı qaldıq. Abunəçi bazası artımı, mobil internetdən istifadənin paytaxt Bakıda və xüsusən regionlarda artması cari ilin 2-ci rübünün əsas uğurlarıdır. İlin sonunadək biz bu artım tempini saxlamaq və daha yüksək göstəricilər əldə etmək üçün çalışacağıq."

Yeni istismara verilən "Nar" 4G baza stansiyalarının təqdim etdiyi yüksəkkeyfiyyətli mobil internet xidməti nəticəsində "Nar" şəbəkəsində ölkə üzrə mobil data istifadəsi ötən ilin eyni dövrü ilə müqayisədə 65% artıb. Bakı və Abşeron bölgəsində bu göstərici üzrə 60% artım müşahidə olunub. Bölgələrdə isə inkişaf tendensiyası daha yüksək olub, bölgələr mobil data istifadəsi üzrə 67% artım göstərərək paytaxt Bakını qabaqlayıb.

4G şəbəkəsinin genişləndirilməsinə xüsusi diqqət yetirən "Nar" ölkənin daha 22 bölgəsində Ağdaş, Daşkəsən, Gəncə, İmişli, Kürdəmir, Lənkəran, Lerik, Masallı, Mingəçevir, Qax, Qazax, Qəbələ, Salyan, Şabran, Şəki, Şamaxı, Şəmkir, Tovuz, Ucar, Yardımlı, Yevlax və Zaqatalada qurulub. 4G şəbəkənin genişlənməsi sayəsində bölgələrdə smartfonlardan istifadə artıb. Qeyd etmək lazımdır ki, qlobal trend olaraq səsli zənglərin həcmində müşahidə olunan azalma "Nar" şəbəkəsinə təsir etməyib; ilk rübdə olduğu kimi, "Nar"-da ölkə üzrə səsli zənglərin həcmi ötən illə müqayisədə dəyişməz olaraq qalmışdır.

Hazırda genişləndirilmiş "Nar" şəbəkəsi ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə "Nar" zəng xidmətlərinin keyfiyyətinin yüksəldərək "HD-Voice" xidmətini tətbiq etmiş və həmin ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olmuşdur. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirmiş və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanmışdır.

"Nar" şəbəkəsi, eləcə də mobil operatorun yeni məhsul və kampaniyaları haqqında ətraflı nar.az saytından öyrənə bilərsiniz.

# Qərbdə siyasi plüralizm və seçilmişlərin imtiyazlı hüquqları

***Birləşmiş Ştatlarda plüralist demokratiyanın olmasına şübhə etmək üçün əsas vardır. Aşağıdakı mülahizələrin bu fikrə qüvvət olaraq göstərmək olar.***

Hökumət tərəfindən görlən tədbirlərin çoxu böyük sərmayəçilərin maraqlarına uyğun olur ki, bu da ölkənin qalan əhalisi üçün baha başa gəlir. Demokratik ictimaiyyətin uzun sürən və gərgin mübarizəsi müsbət nəticələr versə də, aşkar hüquq bərabərsizliyi və sosial ədalətsizlik qalmaqda davam edir və dərinləşməyə doğru getməkdədir. Özəl bazarda çox işlənən malların bolluğu müşahidə olunduğu bir vaxtda cəmiyyət ümumi istifadə xidmətlərinin xroniki çatışmazlığından əziyyət çəkir. Varlıların xərcləyə biləcəkləri böyük məbləğdə pul vəsaitlərinə sahib olmaqla, daha da zənginləşdiyi bir vaxtda, xeyli sayda əhali etibarsız iqtisadi vəziyyətdə yaşayır. Ölkə daxilindəki müdafiə podratçıları və xaricdəki hərbi diktaturalar Maliyyə Nazirliyimizin bəxşişlərindən piylendiyi bir vaxtda, ölkədəki sosial təminat sistemi yoxsullaşır.

Maykl Parenti yazır: "Hökumətin (cəmiyyətdəki bütün əsas maraqları təmsil edən) "bir-biri ilə rəqabət aparan və qarşılıqlı şəkildə tarazlanan" çoxsaylı qruplar arasında, sadəcə, arbitr olduğunu hesab etsək, hökumətin özünü razı salmağı bacaranları hər şeydən yaxşı razı saldığını unutmuş olarıq. Plüralistlərdən birinin dediyi kimi, Amerikada hakimiyyət "dəyişkəndir və bir çox mərkəzlər üzrə bölünmüşdür." Əslində, hakimiyyət nüfuzlu, yaxşı təşkil edilmiş və maliyyələşdirilən çoxprofilli siyasi-iqtisadi birliklər arasında bölüşdürülmüşdür. Var-dövlət hakimiyyətin ən həlledici kursunu təşkil edir. O, hər yerdə üstünlük yaradır və digər resurslardan istifadə imkanı verir. Var-dövlətin cəmiyyətdə bölüşdürülməsi nə geniş, nə də dəyişkəndir.

Plüralistlər Amerika cəmiyyətində geniş yayılmış siyasi repressiyalar - siyasi təmizləmələr və kapitalizmə qarşı olan başqa cür düşünən insanların hökumətdən, fəhlə hərəkatından, kütləvi informasiya vasitələrindən, təhsil müəssisələrindən və əyləncə sahəsindən qovulması, həmçinin, etiraz edən təşkilatların və ictimai maraqları təmsil edən qrupların izlənilməsi və təqib edilməsi haqqında az şey deyə bilərlər. Plüralistlər kütləvi informasiya vasitələrinin xəbər və əyləncə bölmələrinin hər gün üzləşdiyi fikir və informasiyalar üzərindəki, demək olar ki, total nəzarəti heç vaxt xatırlatmırlar. Bu nəzarət sahibkarlar sinfinin ideologiyasına həm ölkə daxilində, həm də xaricdə əlverişli ictimai rəy yaradılması üçün nəzərdə tutulmuşdur. Ölkəmizin iki əsas partiyasının və ya böyük pul vəsaitlərini öz fəaliyyətinin zəruri şərti hesab edən seçki sistemimizin fəaliyyətinin əsaslandığı saxtalaşdırılmış qaydalar da plüralistləri qətiyyən narahat etmir".

Plüralistlər varlıların maraqlarını heç də həmişə dəqiq və əvvəlcədən hazırlanmış fəaliyyətdə əks olunmaması faktına olduqca çox diqqət yetirirlər. Əlbəttə, bütün insanlar kimi, elitanın nümayəndələri də taktikada səhvlərə və dolaşıqlığa yol verirlər. Hər şeydən xəbərdar və günahsız olmasalar da, onların ləng düşünən səfehlər olmadığı dəqiqdir. Öz sinfi maraqları daxilində məqsədlərinə nail olmaq yollarını heç də həmişə dəqiq hesablamasalar da, hər halda, onlar bunu kifayət qədər tez-tez və uğurla edirlər.

Müəllif qeyd edir ki, məgər Amerikanın idarəetmə sisteminin sükanı arxasında qapalı, müəmmalı, hər şeyə qadir və monolit hakim elita dayanıb? Xeyr, plutokratiya və ya hakim sinif belə sadələşdirilmiş və karikatura xarakterli təsvirə uyğun deyil. Birincisi, tarixdə heç bir hakim sinif, nə qədər avtokratik olursa-olsun, heç vaxt hər şeyə qadir olmağa nail olmamışdır. Onların hər biri güzəştlərə getməli və vəziyyətin gözlənilməz və arzuolunmaz dəyişikliklərı ilə razılaşmalı olmuşlar.

Bundan əlavə, hakim elitalar heç də həmişə qapalı və gizli olmamışlar. Onların hakimiyyət və inzibati orqanlara göstərdikləri təsir gizli ola bilər, lakin yəqin etdiyimiz kimi, çox vaxt o, ictimai xarakterli sənədlərdə əks olunmuşdur. O, biznes və hakimiyyətdəki yüksək postlar, müxtəlif forma va qəyyumluq üzrə şuralarda birgə və ya kəsişən direktoratlar üzərindəki nəzarətdə ifadə olunur ki, geniş şəkildə bildirməsə də, bu məlumatları əldə etmək mümkündür. Lakin bu elitalar çox vaxt gizli tədbirlər planlaşdırmağı, onlar haqqında məlumatları gizlətməyi və ya təhrif etməyi və aşkar şəkildə müdafiə etdikləri qanunları poza biləcək siyasət aparmağı arzulonan hesab edirlər.

Amerika hakimiyyətini idarə edən elita monolit deyil. Zaman-zaman hakim dairələrdə sinfi münaqişələri boğmaq və azad bazanın iştirakçılarının maraqlarını təmin etməyin üsulları ilə bağlı kəskin fikir ayrılıqları meydana çıxır. Fikir ayrılıqları kapitalistlər arasında mötədil mühafizəkarlara ifrat mühafizəkarlar arasında, böyük və kiçik sərmayəçilərin maraqları arasında, yerli və xarici korporasiyalar arasında yarana bilər. Lakin belə münaqişələrdə zəhmətkeşlərin maraqları nadir hallarda nəzərə alınır. Böhranlı vəziyyət yarandıqda, müxtəlif elitalar onlara var-dövlətlərini yığmaq və varlı insanlara xas olan həyat tərzlərini davam etdirmək imkanı verən iqtisadi sistemin saxlanılması üçün ümumi maraqlarını birləşdirməyə başlayırlar.

Bu, "cəmiyyətdə əlbirlik" nəzəriyyəsini təhlil etmək üçün kifayət edirmi? Birincisi, qeyd etmək lazımdır ki, həqiqətən, əlbirlik mövcuddur. Adətən belə hesab edilir ki, əlbirliklər ekstremistlərin və qəribə insanların təxəyyülündə mövcuddur. Lakin bəzi insanların əlbirliklərin mövcudluğu ilə bağlı əsası olmayan fərziyyələrə əsaslanmaları faktı bütün əlbirliklərin qeyri-sağlam təxəyyülün məhsulu olduğu demək deyil. Pentaqonun sənədlərinin təhlili Vyetnamda müharibənin qızışdırılması üçün gizli planın olduğunu göstərir. "Uotergeyt" otelinə soxulmaq üçün əlbirliyin, dissident qruplarının dağıdılması üzrə Federal Tədqiqatlar Bürosunun (FTB) gizli 'COINTELPRO" proqramının, 1970-ci illərdə neftin qiymətinin kəskin artmasına səbəb olmuş süni şəkildə şişirdilmiş, lakin yaxşı koordinasiya edilmiş bir neçə "enerji böhranları"nın İran-kontras əlbirliyinin, federal borc-əmanət assosiasiyasi ilə bağlı sövdələşmələrin və prezident Con Kennedinin, hüquq müdafiəçiləri Martin Lüter Kinqin və X.Malkolmun öldürülməsi məqsədilə yaxşı sənədləşdirilmiş əlbirliklərin (və cinayətlərin gizlədilməsi üçün gizli tədbirləri) mövcudluğu məlumdur.

M.Parentinin fikrincə, hakim elitalar öz üzərlərinə, hər hansı məsuliyyət götürmədən gizli sövdələşmələr qurmağa hazırdırlar. Onlar belə sövdələşmələri "milli təhlükəsizlik" maraqları naminə fəaliyyət adlandırırlar. Lakin kimsə onların planlarının (gizli və ya aşkar) öz siniflərinin maraqlarına xidmət etdiyi və lap əvvəldən bu məqsəd üçün nəzərdə tutulduğu haqqında fərziyyə irəli sürdükdə, həmin "kimsə" "əlbirlik nəzəriyyəsinin tərəfdarı" kimi işdən və ya vəzifədən qovulur.

Belə hesab edilir ki, fermerlər, poladqayıran fəhlələr və ya məktəb müəllimləri öz maraqlarını müdafiə etmək üçün fəaliyyətlərini razılaşdıra bilirlər, lakin iş və maliyyə dünyasının, elitaların, hətta onların nümayəndələri vacib qərarların qəbul edildiyi yüksək vəzifələri tutduqda belə, eyni şeyi etməsi ilə bağlı fərziyyələrin irəli sürülməsi yolverilməzdir. Bunun əvəzində, bizə yüksək vəzifə tutan bu hörmətli insanların həyatlarını öz şəxsi müəssisələrinin taleyinə laqeyd şəkildə yaşadıqlarına inanmaq təklif olunur.

M.Parenti yazır: "Ölkəmiz ABŞ-da heç bir böyük hakimiyyət elitası olmasa da, siyasət və iqtisadiyyatın hər bir sahəsində müxtəlif korporativ və hökumət elitaları arasında daim əməkdaşlıq mövcuddur. Xüsusi korporasiyaların daha güclü qrupları konkret maraq sahələrində hakim mövqe tutmağa çalışdıqları bir vaxtda digər elitalar birincilərlə açıq rəqabətdən bu və ya digər dərəcədə çəkinirlər. İstənilən halda, plutokratların maraqlarının toqquşması nadir hallarda xalq kütlələrinin xeyrinə olur. Bu, varlılarla varlıların münaqişəsidir. Çox vaxt onların nizamlanması kompromislər yolu ilə deyil, qarşılıqlı xidmətlərin göstərilməsi, o cümlədən, rəqabət vasitəsilə deyil, gizli sövdələşmələr vasitəsilə baş verir. "Rəqiblər" arasında hər iki tərəfi razı salan belə razılaşmalar, adətən, cəmiyyətin maraqları hesabına baş verir. Əlbəttə, uduzmuş tərəfin tələbləri "darvaza arxasında etirazlar" olaraq, bəzən eşidilə və onların fəal müqavimətini azaltmaq üçün hərdən müəyyən güzəştlər edilə bilər.

Bizim sistemi ikiləşmiş siyasi sistem kimi təsəvvür etmək daha yaxşı olardı. Onun birinci hissəsi hamının gözü qarşısında olan siyasi sistemdir. O, seçki kampaniyalarının keçirilməsi və hakimiyyətin nümayəndəli orqanlarının fəaliyyəti ətrafında cəmlənmişdir və bura rəqiblərin seçkilərdə qalib gəlmək üçün mübarizəsi, ictimai-siyasi xadimlər, siyasi bəyanat və nitqlər, prezidentləri, qubernatorları, merləri və müvafiq qanunverici orqanları "silkələmək" məqsədilə kütləvi informasiya vasitələrində problemlərin birmənalı olmayan şəkildə işıqlandırılması daxildir. Bundan əlavə, milyardlarla dollar məbləğində olan podrat müqavilələri, vergi silinmələri, qrantlar, itkilərin kompensasiyası, subsidiyalar, icarə müqavilələri və dövlət büdcəsinin planlaşdırılması, transmilli şirkətlərə himayəçilik edilməsi və xidmətlərin göstərilməsi üzrə geniş prosesin daxil olduğu az nəzərə çarpan siyasi sistem mövcuddur. Bütün bunlar qanunvericiliyə qarşı tam saymazlıq, onun böyük nüfuza malik olanların maraqlarına uyğun dəyişdirilməsi və əksinə, qanunun bütün cəza qüvvəsinin "dönüklərə" və "sakitliyi pozanlara" qarşı istifadə edilməsi ilə baş verir. Hamının gözü qarşısında olan siyasi sistemin fəaliyyəti təhsil müəssisələrində öyrədilir. Professorlar və elmi işçilər tərəfindən təhlil olunur və daim kütləvi informasiya vasitələrində şərh olunur. Əvəzedici, az nəzərə çarpan siyasi sistemin mövcudluğu nadir hallarda rəsmi şəkildə etiraf olunur".

Müəllif daha sonra göstərir ki, böyük biznes yalnız seçki kampaniyaları üçün maliyyə ianələri keçdiyinə, qanunvericiləri və məmurları manipulyasiya etmək üçün bacarıqlı lobbiçilərdən istifadə etdiyinə görə hakim mövqe tutmur. Biznes hakimiyyət sistemlərindən biri - kapital, əmək resursları və genişmiqyaslı istehsalın təşkili sistemi kimi əhəmiyyətli ümumi təsirə malikdir.

Biznes ölkənin iqtisadiyyatını idarə etdiyindən, hakimiyyət onunla müstəsna şəkildə sıx əlaqə saxlamağa məcburdur. Ölkənin siyasi kursunu müəyyən edənlər sağlam iqtisadiyyata bütün millətin sağlamlığının zəruri şərti kimi baxır. Bir halda ki, iqtisadiyyat böyük biznesin əlindədir, görünür, hakimiyyətin xalqa xidməti həmin biznesin tələbatlarının ödənilməsi yolu ilə daha yaxşı təmin edilir. Biznesin məqsədləri (yüksək gəlir və etibarlı bazarlar) hakimiyyətin məqsədlərinə çevrilir, "milli maraqlar" isə korporativ kapitalizmin sistem tələbatları ilə eyniləşməyə başlayır.

**VAHİD ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 28 iyul


## Stanislav Çerçesovla yeni müqavilə imzalanıb



Rusiya millisinin baş məşqçisi Stanislav Çerçesov yığmadakı işini davam etdirəcək. Rusiya Futbol Federasiyasının rəsmi saytında yer alan xəbərə görə, təcrübəli mütəxəssislə müqavilə yenilənib. Onunla 2+2 illik yeni sözləşmə imzalanıb. Baş məşqçinin illik gəlirinin 2,5 milyon avro olacağı bildirilib. Qeyd edək ki, Rusiya millisi Çerçesovun rəhbərliyi altında DÇ-2018-də 1/4 finala çıxıb. Bu, yığmanın postsovet tarixində ən yaxşı nəticəsidir.

## Dubay polisi 20 milyon dollarlıq oğurlanmış brilyantı öz sahibinə qaytarıb



Dubay polisi yerli şirkətin anbarından oğurlanmış iri brilyantı tapıb və öz sahibinə qaytarıb. AZƏRTAC Dubay KİV-lərinə istinadla bildirir ki, çəkisi 9,33 karat, dəyəri 20 milyon dollar olan qiymətli daş mayın 25-də oğurlanıb. Hadisə Dubaydakı sərbəst iqtisadi zonalardan birinin ərazisində baş verib.

Qeyd edilir ki, oğurlanmış daş dəniz yolu ilə ayaqqabı qutusunda Şri-Lankaya göndərilibmiş. Ciddi təhqiqatdan sonra polis bu daşı öz sahibinə qaytarmağa nail olub. Hadisəni törətməkdə şübhəli bilinən valyutadəyişmə məntəqəsinin işçisi BƏƏ-də həbs edilib. Asayiş keşişçiləri bu cinayətin açılması əməliyyatını həyata keçirmək üçün videomüşahidə kameralarının 8620 saatlıq yazısını araşdırmalı və təxminən 120 nəfəri istintaq etməli olub.

## Ən "ağıllı" səsli köməkçi funksiyası açıqlanıb




"Loup Ventures" şirkətinin analitikləri populyar səsli köməkçi funksiyalarını sınaqdan keçirərək onların ən "ağıllı"sını müəyyənləşdirib.

AZƏRTAC "belta.by" resursuna istinadla xəbər verir ki, testdə "Google Assistant", "Siri", "Alexa" və "Cortana" funksiyaları iştirak edib. Hər yardımçı funksiyaya 5 müxtəlif kateqoriya üzrə 800 sual verilib: ticarət, naviqasiya, lokal xüsusiyyətlər, informasiya və komandalar. Məlumata görə, düzgün cavablara görə lider "Google Assistant" (85,5 faiz düzgün cavab) seçilib. İkinci yerdə "Siri" (78,5 faiz) qərarlaşıb. Sonuncu mövqelərdə "Alexa" və "Cortana" (61,4 və 52,4 faiz) funksiyaları yer alıb. Şirkət əməkdaşlarının sözlərinə görə, ən keyfiyyətli sorğu informasiyasını "Google" səsli köməkçisi (93 faiz düzgün cavab) təqdim edir, "Siri" isə komandaları daha yaxşı yerinə yetirir (90 faiz).

## ELAN

Sabunçu rayonu Vişnyovka-I qəsəbəsində yerləşən 1477 ç - saylı bağ sahəsinin B/S N-li orderi və "Torpaq sahəsi"nin planı itdiyi üçün etibarsız sayılır.

# "Zirvə"nin parlayan ulduzu

***Son illər qızların sevimli idman növünə çevrilmiş bədii gimnastikaya maraq gündən-günə artmaqdadır. Bunun nəticəsidir ki, gimnastlarımız artıq beynəlxalq yarışlarda ölkəmizi layiqincə təmsil edir, yaxşı nəticələr göstərirlər. Bununla da hər bir çempionatda, hər növbəti yarışda bədii gimnastikanın yeni əfsanələri meydana çıxır. Bu gün haqqında bəhs edəcəyimiz 10 yaşlı məktəbli Fatimə Xəlilzadə də idmanın bədii gimnastikasının əfsanələrindən biridir.***



5 yaşından Xırdalan şəhərindəki "Zirvə" İdman Klubunda bədii gimnastika ilə məşğul olmağa başlayan Fatimə Xəlilzadə elə ilk günlərdən xalça üzərində halqa, top, gürz, lent hərəkətləri, elastikliyi, özünü məşqlərə təslim etməsi, həm də verilən tapşırıqların öhdəsindən məharətlə gəlməsi ilə məşqçilərin diqqətini cəlb edib. Elə bu səbəbdən onlar Fatiməyə perspektivli idmançı kimi baxıblar və bu məktəbli qız da ona bəslənən ümidləri doğrultmağa çalışıb. Belə ki, xüsusi bacarığı və qabiliyyəti ilə seçilən Fatimə özünü bədii gimnastikasız təsəvvür edə bilməyib, məşqlərə daim xüsusi məsuliyyət və həvəslə yanaşıb və öz balaca dünyasında ona xüsusi yer ayırıb. Doğrudur, bu yol çox çətin olub, amma Fatimənin bədii gimnastikaya olan həvəsi, istəyi bütün çətinliklərə sinə gərib, onları dəf edib. Çünki o yaxşı bilirdi ki, bu sahə daha çox əziyyət, çalışqanlıq tələb edir.

Şübhəsiz, Fatimə Xəlilzadənin populyar bədii gimnastikaya - kamillik, zəriflik, dəqiqlik və harmoniyanı özündə birləşdirən bu idman növünə bağlayan, onu yüksək səviyyəli gimnast kimi formalaşdıran əsas amillərdən biri də ölkəmizdə bu sahənin inkişafına göstərilən diqqət və qayğı olub. Yeri gəlmişkən, qeyd edək ki, 2002-ci ildə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilməsindən sonra bu sahədə böyük irəliləyişlər üçün zəmin yaranıb.

... Artıq qısa zaman kəsiyində Fatimə Xəlilzadə uğurlarını uğurlara calamaqla Azərbaycan gimnastikasının parlayan ulduzuna çevrilib desək, yanılmarıq. Belə ki, o, 2018-ci il iyunun 14-17-də Bakıda keçirilən, 28 ölkədən 300 gimnastın qatıldığı bədii gimnastika üzrə Beynəlxalq səviyyəli yarışda uğurlu çıxışı ilə III yerə layiq görülüb. Ötən il Kürdəmir Olimpiya İdman Kompleksində keçirilən yarışlarda da III yerin sahibi olub. O, həmçinin 2017-ci ildə Zirvə Beynəlxalq İdman Klubunun ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr etdiyi yarışda fərqlənərək, Bədii gimnastika üzrə açıq V Zirvə oyunlarında II yeri tutub. Onun uğurları sırasına bu il Sərhədçi İdman Olimpiya Mərkəzində keçirilən bədii gimnastika üzrə yarışlarda qazandığı II yer də daxildir.

Fatimənin uğurlarında, sözsüz ki, təhsil aldığı məktəbin də rolu var. 10 yaşlı həvəskar gimnastımız, eyni zamanda, dərs əlaçısıdır. Üstəlik, o, ingilis və rus dillərində də öz fikirlərini sərbəst ifadə edə bilir. Bir sözlə, təhsilin və idmanın vəhdəti ona uğurlarına geniş yol açır. Axı bilik də zirvələrin fəth olunmasında əsas amillərdən biridir. Fatimə Xəlilzadə də bu zirvəyə qalxmaq üçün səylə çalışır.

"Arzular tükənməzdir" deyirlər. Hələ orta məktəb illərinin pillələrini addımlayan Fatimə Xəlilzadə azarkeşlərə özünü həvəskar idmançı kimi təqdim edir. Klub çərçivəsində keçirilən yarışlarda qazandığı uğurlar balaca Fatimənin idmana açılan yolunun ilk cığırlarıdır. Ondan qitə miqyasında və dünya arenasında qələbələr gözləyirik. Hər halda Fatimə Xəlilzadənin bu sahəyə olan həvəsi, indiyədək əldə etdiyi nailiyyətləri buna bizdə əminlik yaradır. Ümid edirik ki, bu qızcığaz gələcək beynəlxalq turnirlərdə Azərbaycanı daha layiqincə təmsil edəcək. Biz də gələn ay 10 yaşı tamam olacaq Fatimə Xəlilzadəyə bu yolda qələbə və uğurlar diləyirik.

# Əliyar Ağayev Çempionlar Liqasında



FIFA referisi Əliyar Ağayev daha bir avrokubok qarşılaşmasında meydana çıxacaq. AFFA-nın saytında yer alan xəbərə görə, UEFA Çempionlar Liqasının 3-cü təsnifat mərhələsinin ilk oyunları çərçivəsində avqustun 7-də Avstriyada "Zaltsburq" klubu ilə ikinci təsnifat mərhələsinin "Şkendiya" (Mekdoniya) - "Şerif" (Moldova) cütünün qalibi arasında keçiriləcək qarşılaşmanın baş hakimi Əliyar Ağayev olacaq. Ona Rza Məmmədov və Zeynal Zeynalov kömək edəcəklər. Dördüncü hakim funksiyasını Orxan Məmmədov yerinə yetirəcək.


**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in kompyuter mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**